18 fevral 2022 №14 (1887)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Otuz il ərzində UNESCO işğal altındakı bölgələrdə qiymətləndirmə aparmayıb

Ermənistanın otuz ilə yaxın davam edən işğalı nəticəsində şəhərlərimiz, kəndlərimiz, maddi-mədəni, dini obyektlər tamamilə dağıdılıb. Azərbaycanın müraciətlərinə baxmayaraq, bütün işğal dövründə UNESCO bu ərazilərdə qiymətləndirmə aparmayıb.

Milli Məclisin sədri Sahibə Qafarova bu sözləri fevralın 17-də BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşdə deyib.

Azərbaycanın tarixi Zəfəri ilə yekunlaşan 2020-ci ilin 44 günlük Vətən müharibəsi barədə danışan Sahibə Qafarova bildirib ki, bununla Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını özü həyata keçirib.

səh. 2

## Qaradağlı qırğınından 30 il ötdü

Fevralın 17-də Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin ən qanlı səhifələrindən olan Qaradağlı faciəsinin 30-cu ildönümü tamam oldu. 1992-ci ilin 17 fevralında erməni silahlı qüvvələrinin Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın Xocalı soyqırımından sonra xalqımızın Qarabağda yaşadığı ikinci böyük müsibətdir.

səh. 2

## Mədəni həyatı necə rəngarəng etməli?



Fevralın 17-də Sumqayıt şəhər Poeziya evində Sumqayıt Regional Mədəniyyət İdarəsi (RMİ) və Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın təşkilatçılığı ilə "Sumqayıtın mədəni həyatını necə daha rəngarəng etməli?" mövzusunda ictimai dinləmələr keçirildi.

Tədbirdə Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədri Gəray Əlibəyov, Milli Məclisin deputatı Müşfiq Məmmədli, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov, Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev, şəhərin ədəbi mühitinin nümayəndələri, mədəniyyət işçiləri iştirak edirdilər.

Əvvəlcə tədbir iştirakçıları Poeziya evində təşkil olunan "Şuşa, sən azadsan!" adlı rəsm sərgisinə baxdılar. Burada şəhərin ədəbi-mədəni mühitini əks etdirən nəşr və müxtəlif janrda əl işlərindən ibarət sərgi də nümayiş olunurdu.

davamı səh. 2-də

## Xarici səyyahlar işğaldan azad olunmuş ərazilərdə

"Qarabağa çoxdan səfər etmək istəyirdim. Gözlədim ki, müharibə bitsin..."




Dünyanın 21 ölkəsindən olan tanınmış səyyahlar Azərbaycanın işğaldan azad edilmiş ərazilərində səfərdədir. Xocalı soyqırımının 30 illiyi ərəfəsində təşkil olunan səfər proqramı fevralın 16-da Şuşa şəhəri ilə tanışlıqla başlayıb. Həmin gün qonaqlar Ağdama da səfər ediblər. Fevralın 17-də isə səfər proqramı Laçın və Kəlbəcər rayonlarını əhatə edib.

Qonaqlara əvvəlcə Şuşa qalası haqqında məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa etdirilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub. 1992-ci ildə şəhər erməni silahlı qüvvələri tərəfindən işğal olunandan sonra Şuşa qalasının divarları erməni vandalizminə məruz qalıb. 2020-ci ildə Azərbaycan Ordusu Şuşanı işğaldan azad etdikdən sonra burada təmir-bərpa işləri aparılıb. Qonaqlar Şuşa qalasının divarları fonunda xatirə şəkilləri çəkdiriblər.

Səyyahlar Şuşanın mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Üzeyir Hacıbəyli və Bülbülün işğal zamanı güllələnmiş büstlərini də ziyarət ediblər. Dünya şöhrətli fotoqraf Reza Deqati Birinci Qarabağ müharibəsi zamanı şahidi olduğu hadisələrdən danışıb, Şuşa şəhərinin erməni işğalından əvvəlki və sonrakı vəziyyəti haqqında səyyahlara məlumat verib.

Əcnəbi səyyahlar daha sonra Yuxarı Gövhər ağa məscidində olublar. Qonaqlara məlumat verilib ki, otuz ilə yaxın sürən işğal dövründə dini abidələr, o cümlədən məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Bülbülün Şuşa şəhərindəki ev-muzeyi də ziyarət olunub. Muzeyin fəaliyyəti və tarixi barədə qonaqlara məlumat verilib.

Səfər iştirakçılarının Şuşada son dayanacağı Cıdır düzü olub. Onlar Cıdır düzündən açılan gözəl mənzərəni seyr ediblər.

davamı səh. 4-də

## Azərbaycanda Polşa memarlıq irsinə həsr olunmuş layihənin təqdimatı




Fevralın 17-də Polşa Respublikasının Bakıdakı Səfirliyinin təşkilatçılığı ilə polşalı memarların Azərbaycanda yaratdığı memarlıq irsinə dair layihənin təqdimatı olub. Layihənin əsas tərəfdaşları Azərbaycan Turizm Bürosu və Bakı Media Mərkəzidir.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva bildirib ki, Azərbaycanın Polşa ilə müasir diplomatik əlaqələri 30 ildir bərpa olunsa da, əslində, bu əlaqələrin tarixi XV əsrdən, Ağqoyunlu dövlətinin başçısı Uzun Həsənin Polşa kralı ilə qurduğu münasibətlərdən başlanır. Polşa XX əsrin sonunda Azərbaycanı müstəqil dövlət kimi ilk tanıyan ölkələrdən biridir.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə iki ölkənin əlaqələri uğurla inkişaf edib. Azərbaycan-Polşa əlaqələrinin inkişafına müstəsna töhfələr vermiş Heydər Əliyevin 90 illik yubileyinin qeyd edildiyi 2013-cü ildə Qnieznoşəhərində Azərbaycan-Polşa "Dostluq" abidəsi açılıb. Bu gün Prezident İlham Əliyev iki ölkə arasında münasibətlərin genişlənməsinə mühüm önəm verir.

Xatırladaq ki, Polşanın qədim paytaxtı Qnieznoda "Dostluq" abidəsi Azərbaycanla Polşa arasında diplomatik əlaqələrin qurulmasının 540 illiyi və bərpasının 20 illiyi münasibətilə qoyulub. Abidə (müəlliflər – Səlhab Məmmədov və Əli İbadullayev) üz-üzə dayanmış palıd yarpağı formasındadır.

davamı səh. 3-də



## Qətərin dünyaca məşhur muzeyində Azərbaycan guşəsi

Qətər Dövlətinin məşhur Şeyx Faysal Muzeyində Azərbaycan guşəsinin açılış mərasimi keçirilib. Guşə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil edilib.

Açılış mərasimində çıxış edən Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov iki ölkə arasında bütün sahələrdə uğurlu əlaqələrdən danışıb və bu əlaqələrin mədəni sahədə də inkişaf etdiyini vurğulayıb. Səfir qeyd edib ki, dünyada tanınan Şeyx Faysal Muzeyində Azərbaycan mədəniyyəti və tarixinə aid nümunələrin sərgilənməsi bu əlaqələrin daha da möhkəmlənməsinin bariz nümunəsidir. Diplomat yaradılmış bu imkana görə Qətər tərəfinə və əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Muzeyin qurucusu Şeyx Faysal bin Qassim əl-Tani öz ürək sözlərini ifadə edərək bu cür eksponatları muzeydə sərgiləməkdən məmnunluq hissi keçirdiklərini deyib.

Daha sonra səfir və Şeyx Faysal bin Qassim əl-Tani muzeyin əsas hissəsində yaradılmış Azərbaycan guşəsinin açılışını bildirən rəmzi lenti kəsib və qonaqlarla birlikdə eksponatlara baxıblar.

Burada Azərbaycan xalça sənəti və milli geyim nümunələri, milli musiqi alətləri və s. nümayiş olunur. Guşə ilə yaxından tanışlıq qonaqlarda zəngin təəssürat yaradıb.

## "Muğam axşamları"nın yeni mövsümdə ilk konserti



Fevralın 17-də Beynəlxalq Muğam Mərkəzinin (BMM) "Muğam axşamları" layihəsinin 2022-2023-cü musiqi mövsümü üçün ilk konserti təqdim edildi.

Konsertdə BMM-in solistləri Mirələm Mirələmov və Nisbət Sədrayeva "Rast" və "Səmayi-şəms" muğamlarını təqdim etdilər. Xanəndələri mərkəzin solistləri Rövşən Qurbanov (tar), Ceyhun Muradov (kamança), Əməkdar artist Təranə Əliyeva (qanun), Rəfael Əsgərov (balaban), Vasif Yusifli (ud) və Amil Mustafayev (nağara) müşayiət edirdi.

Yeni musiqi mövsümündə BMM-in səhnəsində "Şur", "Zabul segah", "Çahargah", "Bayatı-Şiraz", "Humayun", "Şüştər", "Şahnaz", "Orta Mahur", "Arazbarı", "Osmani", "Heydəri", "Bayatı-Qacar", "Mahur-hindi", "Qarabağ şikəstəsi", "Xaric segah", "Heyratı", "Mirzəhüseyn segahı", "Kəsmə şikəstə", "Bayatı-kürd", "Ovşarı", "Dəşti", "Qatar", "Rahab", "Şirvan şikəstəsi" təqdim olunacaq.

Xatırladaq ki, "Muğam axşamları" layihəsi 2017-ci ildən həyata keçirilir. Layihənin rəhbəri BMM-in direktoru, Xalq artisti Murad Hüseynovdur. Layihə çərçivəsində tanınmış ifaçılar tərəfindən muğamlar, xalq mahnıları və təsniflər səsləndirilir. Muğam sənətimizi gələcək nəsillərə çatdırmaq məqsədilə reallaşan konsertlərə tamaşaçılar böyük maraq göstərirlər.

## İki yubilyarla bir söhbət

Müsahiblərimlə görüşə təyin etdiyim vaxtdan tez getdim. İstədim ki, onları özüm qarşılayım. Gənc Tamaşaçılar Teatrının xidməti qapısından girəndə mühafizə-nəzarət masasında əyləşən xanım, daha doğrusu, yaxalığındakı adı diqqətimi cəlb etdi. Adı Səhnə idi. Nisbətən dinməz qadını bir xeyli söhbətə tutmuşdum ki, yanımızdan ötən teatrın texniki əməkdaşlarının "Sən nə vaxt 60 oldun, ay kişi?" zarafat-sualına qanrıldım.

Budur, Natiq Fərzəliyev təşrif buyurdu. Hal-əhvaldan sonra "Neyniyək, Vahid müəllimi gözləyək?" sualıma "Onsuz başlasaq, alınmaz" deyib iri gözlərini intizarla qapıya dikdi. Axır ki, üz-gözündə nəinki 70 yaşdan, heç ahıl aktyordan da əsər-əlamət olmayan Vahid Əliyev də gəlib çıxdı. Özünəməxsus ədə ilə "Buyurun, mənim otağıma qalxaq" deyib irəlilədi. Mənim "Bayaqdan Natiq müəllimin otağını seçmişdik, nə deyirsiz, ünvanı dəyişək" kimi qızışdırıcı sual-atmacama çarəsizlik mimikaları ilə cavab verən Natiq müəllimdən fərqli olaraq, Vahid Əliyev qəribə bir amiranəliklə "Səhnə xanım, fotoqrafa da deyərsiz mənim otağıma – 27-yə gələr" deyib nəzakətlə gülümsədi.

davamı səh. 5-də

## "Qızıl ayı" İspaniyaya getdi




72-ci Berlin Film Festivalının (Berlinale) qalibləri elan olunub. Festival 10-20 fevral tarixində keçirilsə də, mükafatçıların adları fevralın 16-da axşam açıqlanıb. Qalan dörd gündə festival filmlərinin nümayişi Berlin kinoteatrlarında davam edəcək. Təşkilatçılar pandemiya şərtlərini nəzərə alaraq belə yaygın qrafik tərtib ediblər.

Beləliklə, amerikalı rejissor M.Night Şimalanın (Shymalan) rəhbərlik etdiyi beynəlxalq münsiflər heyətinin qərarı ilə 72-ci "Berlinale"nin baş mükafatı – "Qızıl ayı" ispaniyalı rejissor Karla Simonun "Alkarras" filminə verilib. Film Kataloniyanın cənubunda meyvəçiliklə məşğul olan və buradan köçürülmək təhlükəsi ilə üzləşən ailədən bəhs edir.

davamı səh. 2-də

Rus Dram Teatrında "Mənim savaşım" monotamaşası



səh. 3

Regionlardakı rəsm qalereyalarının fəaliyyəti ilə bağlı müzakirə aparılıb

səh. 3



"Zəfər marşı"nın sədasında xor gecəsi

səh. 3

## Ermənistanın qeyri-qanuni əməlləri ilə bağlı hesabat BMT-nin sənədi kimi yayılıb

Azərbaycan tərəfinin hazırladığı "Ermənistan tərəfindən qeyri-kommersiya təşkilatları və xeyriyyə qurumlarından korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə sui-istifadə edilməsi" adlı hesabat BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb.



Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Hesabatda 44 günlük Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Ermənistan hökuməti tərəfindən bir çox ölkələrdə fəaliyyət göstərən erməni diaspor təşkilatları vasitəsilə humanitar yardım adı altında, beynəlxalq maliyyə ödənişi sistemlərindən istifadə etməklə qanunsuz ianə toplanması kampaniyalarının təşkil edildiyi və həmin kampaniyalar çərçivəsində yığılan vəsaitin Azərbaycanın suveren əraziləri daxilində onun mülki əhalisinə qarşı terror fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə xərcləndiyi vurğulanır.

Ermənistanın dövlət rəsmilərinin bəyanatları və erməni ictimai mənbələrinin məlumatları əsasında hazırlanmış hesabatda təkcə Vətən müharibəsi dövründə 73 ölkədə yaşayan erməni diaspor təşkilatları tərəfindən 170 milyon dollardan artıq vəsaitin toplandığı və bunun 110 milyon dollarının müharibə xərclərinin ödənilməsi məqsədilə Ermənistanın dövlət büdcəsinə köçürüldüyü qeyd edilir. Bildirilir ki, bu fakt Ermənistan baş nazirinin 2021-ci il aprelin 21-də parlamentdə dövlət büdcəsi ilə bağlı çıxışında əksini tapıb.

Vurğulanır ki, əksəriyyəti Ermənistanın siyasi rəhbərliyinin təmsil olunduğu "Hayastan All Armenian Fund" tərəfindən təşkil və idarə olunan bu cür ianə kampaniyaları 44 günlük müharibənin yekunlarına dair Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan sonra da davam etdirilir.

Xarici İşlər Nazirliyi bildirir ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş və onun ərazisinə qanunsuz maliyyə axını yaradan bu cür fəaliyyətlər eyni zamanda çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində mövcud olan beynəlxalq öhdəliklərin kobud şəkildə pozulmasıdır.

## Rusiya şirkətləri də işğaldan azad edilmiş ərazilərdə çalışmaq istəyir

Rusiyanın 14 şirkəti Azərbaycanın işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərmək üçün müraciət edib.

Bu barədə Azərbaycan-Rusiya İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının həmsədrləri – Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk arasında videokonfrans formatında keçirilən görüşdə məlumat verilib.

Rusiya şirkətləri üçün Azərbaycan sənaye parklarında həyata keçirilən layihələrdə iştirak etmək üçün əlverişli imkanların olduğu diqqətə çatdırılıb.

Görüşdə o da bildirilib ki, Azərbaycan-Rusiya İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının 20-ci iclası bu ilin aprel-may aylarında Bakıda keçiriləcək.

## Kanada Parlamentinə Xocalı qətliamına dair petisiya təqdim olunub

Kanada Azərbaycanlıları Şəbəkəsinin (Network of Azerbaijani Canadians) təşkilatçılığı ilə bu ölkənin parlamentinə Xocalı qətliamına dair petisiya təqdim olunub.

Petisiya parlamentin Mühafizəkarlar Partiyasından olan üzvü Maykl Kuperin dəstəyi ilə dərc edilib və 1500-də artıq Kanada vətəndaşının imzası ilə parlamentə təqdim edilib.

Petisiyanı parlamentdə təqdim edərkən Maykl Kuper Xocalı qətliamının Qarabağ münaqişəsinin ən qanlı səhifəsi olduğunu diqqətə çatdırıb. Bildirib ki, münaqişə nəticəsində Azərbaycan əraziləri otuz ilə yaxın işğal altında saxlanılıb, 800 mindən artıq azərbaycanlı öz torpaqlarından qovulub.

Petisiyada Ermənistan hərbi qüvvələri tərəfindən törədilmiş Xocalı qətliamının Kanada hökuməti tərəfindən rəsmi olaraq pislənməsi, 26 fevralın Kanadada "Anım günü" kimi qeyd edilməsinin elan olunması, gələcəkdə Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar edilməsi məqsədilə iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası və eləcə də münasibətlərin normallaşdırılması səylərinə Kanada tərəfindən dəstəyin verilməsinə çağırış yer alıb.

Petisiya üçün imza toplanmasında Kanadada yaşayan azərbaycanlılar aktiv iştirak ediblər.

## Qobustanın dünyanın mədəni mirası kimi layiqincə təbliği üçün

Fevralın 18-də Qobustan Milli Tarix-Bədii Qoruğunun təsis etdiyi "Qobustan dünyası" elmi-metodiki, populyar jurnalının, nəşrin internet saytının və qoruğun sifarişi ilə ərsəyə gələn "Qavaldaş" cizgi filminin təqdimat mərasimi keçiriləcək.




Beynəlxalq Muğam Mərkəzində keçiriləcək tədbirdə həmçinin Qobustan abidələrindən bəhs edən fotosərgi nümayiş olunacaq.

Xalqımızın qədim tarixini, yaşayış tərzini, mədəniyyətini, incəsənətini özündə əks etdirən Qobustan mədəniyyətin müxtəlif sahələrinin silinməz nişanələrini gələcək nəsillərə daşıyır.

Təkcə ölkəmizin deyil, dünyanın mədəni mirası olan Qobustan qayaüstü abidələrinin, ümumilikdə Azərbaycan mədəniyyətinin və incəsənətinin ölkə və beynəlxalq səviyyədə layiqincə təbliğ olunması qoruğun ən vacib fəaliyyət istiqamətlərindən biridir. Qobustan Milli Tarix-Bədii Qoruğunun təsis etdiyi jurnal, sayt və qoruğun sifarişi ilə ərsəyə gələn "Qavaldaş" cizgi filmi də bu məqsədə xidmət edir.

# Otuz il ərzində UNESCO işğal olunmuş ərazilərdə qiymətləndirmə aparmayıb

### Azərbaycanın haqlı mövqeyi BMT təmsilçisinin diqqətinə çatdırılıb

Ermənistanın otuz ilə yaxın davam edən işğalı nəticəsində şəhərlərimiz, kəndlərimiz, maddi-mədəni, dini obyektlər tamamilə dağıdılıb. Azərbaycanın müraciətlərinə baxmayaraq, bütün işğal dövründə UNESCO bu ərazilərdə qiymətləndirmə aparmayıb.

Milli Məclisin sədri Sahibə Qafarova bu sözləri fevralın 17-də BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşdə deyib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Sahibə Qafarova BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi kimi fəaliyyətinin qarşılıqlı əməkdaşlığın möhkəmlənməsinə töhfə verəcəyinə inandığını ifadə edib, qonağa bu sahədə uğurlar arzulayıb.

Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrin inkişafına önəm verdiyini diqqətə çatdıran Milli Məclisin sədri bildirib ki, bu il ölkəmizin BMT-yə üzv olmasının 30 illiyi tamam olacaq. Azərbaycan BMT-nin müxtəlif fəaliyyət sahələrini əhatə edən qurumlarla fəal əməkdaşlıq edir. Azərbaycanın 155 üzv dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına 2012-2013-cü illərdə qeyri-daimi üzv seçilməsi ölkəmizin beynəlxalq nüfuzunu nümayiş etdirir.

Milli Məclisin sədri vurğulayıb ki, bu gün Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi həm də BMT-nin təşəbbüslərini dəstəkləyir və qlobal narahatlıq doğuran məsələlər üzrə görülən işlərə öz töhfəsini verir. 2020-ci ilin dekabrında Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü təklif əsasında dövlət və hökumət başçıları səviyyəsində koronavirus (COVİD-19) pandemiyası ilə mübarizə üzrə BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyası çağrılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci il martın 23-də BMT İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində və 2021-ci il dekabrın 16-da Baş Assambleyanın 76-cı sessiyası çərçivəsində plenar iclasda 179 üzv dövlətin dəstəyi ilə "COVİD-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilib.

Azərbaycanın tarixi Zəfəri ilə yekunlaşan 2020-ci ilin 44 günlük Vətən müharibəsi barədə danışan Sahibə Qafarova bildirib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər



Ordumuzun şücaəti sayəsində ərazilərimiz Ermənistanın 30 illik işğalından azad edilib. Bununla Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını özü həyata keçirib. Hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparılır və ümumilikdə Cənubi Qafqaz regionunda yeni reallıq yaranıb.

Görüşdə Vladanka Andreyeva Azərbaycanın BMT ilə fəal əməkdaşlığından məmnunluğunu ifadə edib. Diqqətə çatdırıb ki, Azərbaycan BMT üçün mühüm məsələlərdə qlobal liderliyi öz üzərinə götürən vacib tərəfdaşdır.

BMT-nin nümayəndəsi yaxın vaxtlarda Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edəcəklərini və orada qiymətləndirmə missiyası həyata keçirəcəklərini diqqətə çatdırıb. O, Azərbaycanın işğaldan azad edilmiş ərazilərin bərpası barədə planlarının, xüsusilə də "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin onda böyük təəssürat yaratdığını qeyd edib.

Dayanıqlı inkişaf məqsədlərindən danışan qonaq bunun Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının bərpasında mühüm rol oynadığını diqqətə çatdırıb, ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası və insanların geri qayıdışının təmin edilməsi barədə fikirlərini bölüşüb.

# Mədəni həyatı necə rəngarəng etməli?

### Sumqayıtda bu mövzuda ictimai dinləmələr keçirildi

*əvvəli səh. 1-də*

Tədbirdə giriş sözü söyləyən Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev qeyd etdi ki, son illər ölkəmizdə yeni mədəniyyət ocaqları yaradılır, maddi-texniki təchizat yaxşılaşdırılır. Mədəniyyət Nazirliyi tərəfindən müasir idarəetmə üsullarının tətbiqi, səmərəliliyin artırılması, ən əsası insan kapitalının müasir tələblərə uyğunlaşdırılması və inkişaf etdirilməsi ilə bağlı yeni baxış, yeni məqsədlər ortaya qoyulur: "Sumqayıtın mədəni həyatına gəldikdə isə, dövlətin diqqət və qayğısı ilə şəhərin siması daha da müasirləşib. Yeni müasir mədəniyyət ocaqları tikilib istifadəyə verilib. Sumqayıtın mədəni həyatını daha da canlandırmaq məqsədilə bu gün buraya toplaşan mədəniyyət işçilərinin fikirlərini dinləyəcəyik".

Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədri Gəray Əlibəyov tədbirdə şuranın 4 üzvünün iştirak etdiyini dedi. Qeyd etdi ki, İctimai Şura ölkəmizdə mədəniyyət ocaqlarının günün tələbləri səviyyəsində fəaliyyət göstərməsində, mədəni həyatın daha zəngin və rəngarəng olmasında maraqlıdır. Buna görə də şuranın nəzdində fəaliyyət göstərən işçi qrupları həm paytaxtda, həm də regionlarda müxtəlif tədbirlər həyata keçirirlər. Bugünkü tədbir onlardan biridir.

G.Əlibəyov bildirdi ki, son dövrlərdə Sumqayıt şəhərinin mədəni həyatında canlanma hiss olunur, bu sahədə kreativlik, yeni yanaşma tərzi öz sözünü deməkdədir. Pandemiya məhdudiyyətləri şəraitində mövcud çətinliklərə baxmayaraq, mədəniyyət sahəsi inkişafdan qalmır, teatr premyeraları, kitab yarmarkaları, rəsm sərgiləri, müxtəlif təqdimatlar, müsabiqələr, virtual platformalarda forum və müzakirələr keçirilir. Həmçinin tanınmış sumqayıtlılar haqqında videoçarxlar çəkilir və sosial mediada nümayiş etdirilir. Şəhərdə yeni kukla teatrı da yaradılıb: "Bəs daha nələr etmək olar ki, sumqayıtlıların, xüsusən şəhər gənclərinin asudə vaxtları dəyərli keçsin, onların mədəni səviyyəsi yüksək qalsın. Bu gün bu suala cavab tapmaq üçün müzakirələr aparılacaq. Daha sonra İctimai Şura olaraq müəyyən məsələlərlə bağlı Mədəniyyət Nazirliyinə müraciət edəcəyik".




Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov ölkəmizdə yaradıcı insanlara dövlət qayğısından danışdı. O, tədbirin keçirildiyi Poeziya evinin Sumqayıt yazarlarına verilən ən böyük töhfə olduğunu dedi: "Gənclərimizin asudə vaxtlarını daha səmərəli keçirməsi üçün şəhərimizdə hər cür şərait yaradılıb. Şəhər rəhbərliyi tərəfindən bu istiqamətdə işlər davam etdirilir...".

Milli Məclisin deputatı Müşfiq Məmmədli vurğuladı ki, son illərdə Sumqayıtda təqdirəlayiq quruculuq-abadlıq işləri aparılıb: "İnfrastruktur obyektlərinin yenidən qurulması da yaradıcı mühitin inkişafına və canlanmasına gətirib çıxarır. Biz davamlı olaraq gənclərimizdən şikayətlər eşidirdik ki, asudə vaxtımızı keçirmək üçün lazım olan obyektlərimiz yoxdur. Lakin qısa müddət ərzində mədəni obyektlər qurularaq şəhər əhalisinin istifadəsinə verildi".

Daha sonra tədbir iştirakçılarının mövzu ətrafında təklifləri dinlənildi. Problemlərin aradan qaldırılması istiqamətində müvafiq addımların atılması qərara alındı.

Qeyd edək ki, Mədəniyyət Nazirliyi yanında İctimai Şura 2021-ci ilin iyulunda formalaşıb. Şura doqquz üzvdən ibarətdir.

**Nurəddin Məmmədli**

## Qaradağlı qırğınından 30 il ötdü

Fevralın 17-də Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin ən qanlı səhifələrindən olan Qaradağlı faciəsinin 30-cu ildönümü tamam oldu. 1992-ci ilin 17 fevralında erməni silahlı qüvvələrinin Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın Xocalı soyqırımından sonra xalqımızın Qarabağda yaşadığı ikinci böyük müsibətdir.




Qaradağlı kəndi Xocavənd rayon mərkəzindən 13 kilometr qərbdə, Xocavənd-Xankəndi avtomobil yolunun kənarında, dağətəyi ərazidə yerləşir. 1988-ci ildə Dağlıq Qarabağda erməni separatçıları baş qaldırdığı andan Xocavənd rayonunun Qaradağlı kəndinin də faciəli günləri başlanıb. Kənd dəfələrlə erməni silahlı dəstələri tərəfindən hücumlara məruz qalıb, onlarla sakin öldürülüb və yaralanıb.

1992-ci il fevralın 12-də Şuşanın Malıbəyli kəndi işğal edilərək yandırıldı. Növbəti hədəf Qaradağlı idi. Fevralın 14-də erməni quldurları xarici muzdluların, xüsusilə Xankəndidə yerləşən keçmiş Sovet Ordusunun 366-cı alayının texnikasından və canlı qüvvəsindən istifadə etməklə əlaqəsi hər tərəfdən kəsilmiş Qaradağlı kəndinə hücuma keçdilər. Kəndin əlisilahlı yüzə yaxın sakini və 14 əsgər üç gün düşmənə qarşı savaşdı. Amma qüvvələr qeyri-bərabər idi. Döyüşlərdə 14 nəfər həlak oldu.

1992-ci il fevralın 17-də Qaradağlı işğal edilərək yandırıldı. İşğal zamanı 118 nəfər əsir götürülmüşdü. Onlardan 68 nəfəri öldürüldü, qalanlar böyük çətinliklə əsirlikdən azad edildi.

Ermənistanın həyata keçirdiyi soyqırımı cinayəti nəticəsində Qaradağlı kəndində iki ailənin hər birindən 4 nəfər qətlə yetirilmiş, 43 ailə öz başçısını itirmiş, 146 uşaq yetim qalmışdı. Ümumilikdə kəndin 91 nəfər sakini qətlə yetirilmişdi. Onlardan 10-u qadın, 8-i məktəbyaşlı uşaq idi.

2020-ci ilin Vətən müharibəsində müzəffər Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərlə erməni işğalının bütün qurbanlarının, o cümlədən Qaradağlıda qətlə yetirilən sakinlərin qisası düşməndən alındı...

## Azərbaycanlı aktyorlar Rusiya serialında

Bu yaxınlarda Rusiyanın Birinci kanalında tanınmış Azərbaycan aktyorlarının da rol aldığı tarixi mövzuda çəkilən "Ola bilsin, sultan özünə yeni əyləncə tapıb. Yeniçər" ("Возможно, султан нашел себе новую забаву. Янычар") serialının nümayişü başlayacaq.

Serialda hadisələr rus çarı Boris Qodunovun hakimiyyəti illərində (1598-1605) cərəyan edir. Bu kontekstdə Çar Rusiyası ilə Osmanlı İmperiyası arasında münasibətlərə toxunulur.

Ekran işində Rusiyanın tanınmış aktyorları ilə yanaşı, ölkəmizdən Xalq artisti Pərviz Məmmədrzayev və aktyor Kamran Ağabalayev, eləcə də kaskadyorlarımız Sain Fərmanlı və Tural Xəlili çəkilib.

Filmdə Kamran Ağabalayev əsas rollardan birini – Bəyazid ağanı, Pərviz Məmmədrzayev isə Trabzon valisini canlandırıb.

Çəkilişləri Rusiya və Türkiyədə aparılan serialın rejissoru İvan Şurxovetski, prodüseri Yelena Deniseviçdir. Layihəni Birinci kanal üçün "Mars Media" kino şirkəti həyata keçirib. Ekran işinin treyleri artıq Birinci kanalın saytında yerləşdirilib.

**Lalə**

## "Qızıl ayı" İspaniyaya getdi

*əvvəli səh. 1-də*

"Berlinale"nin ikinci mükafatı sayılan "Böyük jüri mükafatı"na Cənubi Koreya rejissoru Honq Sanq-Su "Romançının filmi"nə görə layiq görülüb. "Gümüş ayı" mükafatını isə meksikalı Natalia Lopez Gallardonun "Dövlət paltarı" bədii filmi qazanıb. Fransız Kler Denis "Sevənlər amansız ola bilir" filminə görə "ən yaxşı rejissor" nominasiyasında qalib olub.

"Ən yaxşı aktrisa" kateqoriyasında alman rejissor Andreas Drezenin "Rəbiyyə Kurnaz Corc Buşa qarşı" filmində rol alan türk əsilli Meltem Kaptan təltif olunub. Türkiyəli evdar qadın Rəbiyyə Kurnazın oğlu Muratın Quantanamo həbsxanasından azadlığa çıxması uğrunda mübarizəsindən bəhs edən film "Ən yaxşı ssenari" (müəllif Laila Stieler) nominasiyasında da "Gümüş ayı" mükafatını alıb.

# Azərbaycanda Polşa memarlıq irsinə həsr olunmuş layihənin təqdimatı

## Polşalı turistlər üçün bu memarlıq irsi ilə bağlı xüsusi gəzinti turu da hazırlanıb







*əvvəli səh. 1-də*

Sevda Məmmədəliyeva bildirib ki, Bakının özünəməxsus gözəlliyinin yaradılmasında Polşa memarları mühüm rol oynayıblar. Onların layihə müəllifləri olduqları tarixi tikililər bu gün yeni çalarda öz gözəlliyi ilə bizi cəlb edir. Polşalı memarların adlarını əbədiləşdirmək məqsədilə Bakının tarixi məhəlləsində yerləşən küçələrdən birinə "Polşa memarları" adı verilib. Diqqətə çatdırılıb ki, təqdim olunan layihə Azərbaycana səfər edəcək polşalı turistlər üçün də çox faydalı olacaq.

Polşanın Bakıdakı səfiri Rafal Poborski deyib: "Ötən il biz Polşa-Azərbaycan əlaqələrinin 30 illiyini qeyd etdik. Bizim əlaqələrimiz tək diplomatik deyil, həm də sosial-iqtisadi və siyasi sahələri əhatə edir. Bizim əlaqələrin tarixi qədimdir. Bu gün təqdimatına yığışdığımız layihə Polşa memarlarının Azərbaycanda yaratdığı abidələrlə bağlıdır. 2019-cu ildə Azərbaycan və Polşa prezidentlərinin iştirakı ilə Bakıda "Polşa memarları" küçəsinin açılışı olub. Azərbaycanda Polşa memarlarının yaratdığı abidələr turizm baxımından da əhəmiyyətlidir. Düşünürəm bu abidələr tək memarlıq nümunəsi deyil, həm də Azərbaycanın tarixini əks etdirən elementlərdir...".

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid layihənin Polşa-Azərbaycan turizm əlaqələrinin inkişafına dəstək olacağını deyib. Bildirib ki, təmsil etdiyi qurum Polşa turistləri üçün gəzinti turu hazırlayıb, həmçinin yol xəritəsi tərtib edib. Tur çərçivəsində turistlər polşalı memarların ucaltdığı binalarla tanış olacaq. Bu məqsədlə hazırlanan broşürdə onların Azərbaycanda yaratdığı bütün memarlıq abidələri yer alıb. Broşürdə neft bumu dövründə Bakının xüsusi görünüşünü formalaşdıran 4 görkəmli polyak memarı – İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko və Yevgeni Skibinskinin Azərbaycandakı memarlıq fəaliyyətlərindən, həmçinin neftçıxarma üzrə mütəxəssis Pavel Pototskinin ölkənin neft sənayesinə verdiyi töhfələrdən bəhs olunur.

Nəşrdə həmçinin XX əsrin əvvəllərində Şamaxı, Gəncə, Qusar və Zaqatalada polyak memarlıq üslublarında məscid, kilsə, eləcə də şəhər planlarının hazırlandığı diqqətə çatdırılır. Broşürlə "Azerbaijan.travel" portalında tanış olmaq mümkündür. "Ümid edirəm ki, sərhədlər açıldıqdan sonra yeni-yeni istiqamətlər üzrə məlumatlar hazırlanacaq", – deyə F.Zenqstşmid əlavə edib.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri, professor Elbay Qasımzadə qeyd edib ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıya əcnəbi sərmayədarlarla yanaşı, tanınmış mühəndislər, inşaat üzrə mütəxəssislər də gəlirdi. Bakının memarlıq simasının zənginləşməsində yerli memarlarla bərabər, əcnəbi mütəxəssislər də fəal iştirak edirdilər. Şərq üslubunu heç vaxt itirməyən şəhər, eyni zamanda bir Avropa şəhərinə çevrilirdi. Bu məsələdə, ümumiyyətlə, Bakının arxitekturasında polşalı memarlar xüsusi rol oynayırdılar. Onlar Azərbaycan paytaxtının bir sıra möhtəşəm tarixi binalarının müəllifi olublar. Məsələn, Murtuza Muxtarovun sarayı ("Səadət" sarayı), İsmailiyyə (AMEA Rəyasət Heyətinin binası), Bakı Şəhər İcra Hakimiyyətinin binası və bir çox tarixi binalar polşalı memarların layihələri əsasında inşa olunub. "O dahi memarlar milliyyətcə polşalı olublar, düzdür, amma, eyni zamanda onlar Azərbaycanda memarlıq irsini təşkil edən əsərlər yaradıb deyə, həm də azərbaycanlı sayılmalıdırlar", – deyə Elbay Qasımzadə bildirib.

Memarlıq tarixinin tədqiqatçısı, professor Elçin Əliyev diqqətə çatdırıb ki, ölkəmizdə on bir polşalı memar tərəfindən 81 abidə ucaldılıb. O, Azərbaycanda Polşa memarlarına həsr olunan fundamental kitabın yazılmasının vacibliyini vurğulayıb.

Tədbirin sonunda təqdim edilən broşür əsasında hazırlanmış slayd-şou nümayiş olunub.

# "Zəfər marşı"nın sədasında xor gecəsi

## Xor dirijoru Elnarə Kərimovanın yaradıcılıq fəaliyyətinə həsr olunmuş konsert proqramı



Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Məkanının birgə təşkilatçılığı ilə ötən ildən gerçəkləşdirilən və böyük maraqla qarşılanan "Mədəni yenilənmə" layihəsi bu il də davam etdirilir.

Yeni ildə layihənin yeni qonağı TRT-nin (Türkiyə Radio və Televiziya Qurumu) Ankara Radiosu xorunun bədii rəhbəri və dirijoru, Azərbaycanın Xalq artisti Elnarə Kərimovadır. O, 1992-ci ildən qardaş Türkiyədə yaradıcı fəaliyyətlə məşğuldur. TRT Çoxsəsli xoruna rəhbərlik etməklə yanaşı, "Orfeon" kamera xoru ilə işləyib, TÜRKSOY-un nəzdində yaradılan xor kollektivinin rəhbəri olub, bu kollektivlərlə müxtəlif ölkələrdə qastrollarda, festivallarda çıxış edib.

Fevralın 15-də layihə çərçivəsində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Elnarə Kərimovanın səhnə fəaliyyətinin 30 illik yubileyi münasibətilə konsert proqramı təqdim edildi.

Tədbirdə Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak edirdi.

Konsertdə dirijorun rəhbərliyi ilə TRT Ankara Radiosu xoru bəstəkarların xor əsərlərini və xalq mahnılarını ifa etdi.

İlk olaraq Asəf Zeynallının "Ölkəm" romansı ifa edildi. Sonra C.Rossininin "Sevilya bərbəri" operasından uvertüra səsləndirildi.

Xorun üzvləri – solistlər Özlem Üngör və Çinar Onur Öner "Gəmilər Giresuna" və "Mən gedərəm Batuma, hey!" mahnılarını böyük coşqu ilə ifa etdilər.

Daha sonra Aşıq Veysəlin "Qara torpaq" (solistlər Cem Buğdaycı, Melek Önbaş), qazax xalq mahnısı "Dağ içində", Azərbaycan xalq mahnıları "Dağlarda çiçək", "Nə baxırsan" (nağara Murad Nağızadə, xanəndə Elsevər Muradov), həmçinin "Bir budaqda iki alma", "Suda balıq oynayır" və "Niksarın fidanları" türk mahnıları gecənin musiqi palitrasına əlavə rəng qatdı.

Proqramın musiqili qonaqları – TÜRKSOY Gənclik xoru, "Buta" kamera xoru və Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər və baş dirijor – Xalq artisti Gülbacı İmanova) da TRT Ankara Radiosu xoru ilə birlikdə gecənin iştirakçılarına xoş təəssürat yaşatdılar.

Konsert proqramına dahi Azərbaycan bəstəkarı Qara Qarayevin "Zəfər marşı"nın (söz – Barış Cavid Mövsümlü, solist – xorun üzvü Çinar Onur Öner, piano – Elxan Niftiyev) ifası ilə yekun vuruldu. "Zəfər marşı"nın səslənməsi musiqisevərlərin gur alqışları ilə qarşılandı.

Qeyd edək ki, bu əsər orijinalda "Dəniz neftçilərinin mahnısı" adlanırdı. Elnarə Kərimovanın təşəbbüsü və Qara Qarayevin oğlu Fərəc Qarayevin razılığı ilə əsərin rus dilində olan sözləri Azərbaycan dilinə tərcümə edilib və Qarabağ Zəfərimizə həsr olunub.

Xatırladaq ki, 2021-ci ilin oktyabrından həyata keçirilən "Mədəni yenilənmə" layihəsinin məqsədi xaricdə yaşayan, musiqi, teatr, kino, ədəbiyyat və elm sahəsində peşəkar uğurlara imza atmış istedadlı soydaşlarımızın fəaliyyəti ilə Azərbaycan cəmiyyətini tanış etmək, onlarla davamlı təmaslar yaratmaqdır.

Fevralın 17-də YARAT Müasir İncəsənət Məkanında "Mədəni yenilənmə" layihəsi çərçivəsində Elnarə Kərimovanın Azərbaycanın xor kollektivləri üçün xor ifaçılığı üzrə ustad dərsi keçirilib.

**Nurəddin**

# "Tehran Times" Akademik Musiqili Teatrdan yazıb

İranın "Tehran Times" informasiya agentliyində Azərbaycan Dövlət Akademik Musiqili Teatrının ötən həftə 40-cı "Fəcr" Beynəlxalq Teatr Festivalında uğurlu iştirakı və nümayiş etdirdiyi tamaşalar haqqında yazı dərc olunub.

Teatrın mətbuat xidmətindən bildirilib ki, məqalədə Akademik Musiqili Teatrın "Bir nəfəs qədər" (rejissor Samir Qulamovun pyesi əsasında və quruluşunda) tamaşasının süjet xətti barədə oxuculara ətraflı məlumat verilir. Eyni zamanda Azərbaycanın İrandakı səfiri Əli Əlizadənin "Tehran Şəhər Teatrı" kompleksində tamaşanın nümayişindən əvvəl etdiyi çıxışından da bəzi məqamlar diqqətə çatdırılır: "Bir nəfəs qədər" musiqili dramında ölkəmizin 44 günlük Vətən müharibəsində qazandığı şanlı Zəfərdən bəhs edilir. Bu qələbəni bütün müsəlman dünyasının qələbəsi hesab edirik... Biz döyüşlərdə hər zaman əsgərlərimizə dəstək olmuşuq və onların şücaətindən bəhs etməklə bütün şəhidlərimizin xatirəsini yad edirik...".



Materialda teatrın festivalda təqdim etdiyi digər tamaşa – rus yazıçısı Fyodor Dostoyevskinin "Utancaq qız" povesti əsasında Xalq artisti Cənnət Səlimovanın quruluşunda səhnəyə qoyulan monotamaşa haqqında da məlumat verilir.

Yazıda teatrın "Fəcr" festivalında iştirakı yüksək qiymətləndirilir, belə yaradıcılıq səfərlərinin iki ölkə arasında mədəni əlaqələrə töhfə verdiyi ifadə olunur.

# Regionlardakı rəsm qalereyalarının fəaliyyəti ilə bağlı müzakirə aparılıb

Regionlardakı rəsm qalereyalarının fəaliyyəti fevralın 15-də videokonfrans formatında keçirilən iclasda müzakirə olunub.

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyevanın sədrlik etdiyi iclasa şəhər və rayonlarda fəaliyyət göstərən rəsm qalereyalarının rəhbərləri qatılıblar.

Videokonfransın açılışında Sevda Məmmədəliyeva ölkəmizdə mədəniyyətin inkişafı ilə bağlı görülən mühüm işlərdən bəhs edib. Nazir müavini paytaxtla yanaşı, regionlarda da mədəniyyət müəssisələrinin əsaslı təmiri, yeni binalarla təchiz edilməsi, həmçinin müasir üslubda bədii tərtibat işlərinin həyata keçirilməsindən söz açıb.

Nazirlik tərəfindən rəsm qalereyaları ilə bağlı ardıcıl şəkildə maddi-texniki bazanın möhkəmləndirilməsi, əməkdaşların və rəhbər işçilərin kadr-peşə hazırlığının artırılması, maarifləndirilmə istiqamətində tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, qalereyalarda Azərbaycan rəssamlarının yüksək bədii və tarixi əhəmiyyətə malik əsərlərinin qorunması, respublika və beynəlxalq sərgilərdə nümayişi ilə bağlı müvafiq layihələr, həmçinin qalereyalara peşəkar kadrların cəlb edilməsi və ümumi fəaliyyətin təkmilləşdirilməsi istiqamətində yol xəritəsi hazırlanıb.

Sonra Mədəniyyət Nazirliyinin Muzey, qalereya və sərgilər şöbəsinin müdiri Nərgiz Abdullayeva çıxış edərək rəsm qalereyalarının işinin fəallaşdırılması, gənc mütəxəssislərin cəlb olunması, əməkdaşların dil biliklərinin artırılması, fondların zənginləşdirilməsi və əsərlər üzərində elmi tədqiqat işlərinin aparılmasının vacibliyini vurğulayıb. Şöbə müdiri regionlardakı qalereyalarda çalışan əməkdaşların davamlı olaraq bilik və bacarıqlarının artırılmasının zəruriliyini qeyd edib.

Onlayn görüş zamanı Mingəçevir, Laçın, Ağstafa, Qazax, Biləsuvar, Xaçmaz və Neftçala dövlət rəsm qalereyalarının rəhbərləri tərəfindən fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı irəli sürülmüş təkliflər müzakirə edilib.

# Fikrət Əmirovun 100 illiyi Özbəkistanda silsilə tədbirlərlə qeyd olunacaq

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə 2022-ci ildə Azərbaycanın böyük bəstəkarı Fikrət Əmirovun (1922-1984) anadan olmasının 100 illiyi münasibətilə silsilə tədbirlər keçiriləcək.




İl ərzində "Fikrət Əmirov – Azərbaycan musiqi sənətinin parlaq siması, dünya musiqisində simfonik muğam janrının yaradıcısı" adlı beynəlxalq konfransın, Azərbaycan musiqiçiləri və Özbəkistan Milli Simfonik Orkestrinin iştirakı ilə dahi bəstəkarın əsərlərindən ibarət dostluq konsertinin və digər tədbirlərin təşkili nəzərdə tutulub.

AMM-dən verilən məlumata görə, həmçinin Fikrət Əmirovun bir sıra əsərlərinin not yazıları Özbəkistanın ali musiqi məktəblərinə hədiyyə ediləcək.

Qeyd edək ki, mərkəzin könüllüləri tərəfindən "Wikipedia" elektron ensiklopediyasında Fikrət Əmirov haqqında özbək dilində bölmə hazırlanaraq istifadəyə verilib.

# BXA tələbələrinə XV Delfi Oyunlarının diplomları təqdim edilib

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) XV Delfi Oyunlarında iştirak etmiş tələbələrə diplomların təqdim edilməsi ilə bağlı tədbir keçirilib.



MDB-yə üzv olan ölkələrin gənclərinin 2021-ci il dekabrın 7-dən 10-dək Moskvada keçirilən XV Delfi Oyunlarında BXA iki nominasiya – milli rəqs və modern rəqs (10-14, 14-22 yaş) üzrə təmsil olunub.

Diplomların təqdim edilməsi mərasimində BXA-nın rektoru vəzifəsini müvəqqəti icra edən Əməkdar artist Nailə Məmmədzadə, prorektorlar – Xalq artisti Təranə Muradova, dosent Yeganə Tapdıqova, BXA-nın tam orta təhsil pilləsinin direktoru Bəşarət Hüseynova, orta ixtisas təhsil pilləsinin direktoru Tahir Eynullayev və tələbə-müəllim heyəti iştirak edib.

Diqqətə çatdırılıb ki, XV Delfi Oyunlarında BXA-nın müəllimi, Xalq artisti Yusif Qasımovun quruluşunda 18 nəfərdən ibarət "Bakının ulduzları" rəqs ansamblı 14-22 yaş kateqoriyasında milli rəqs nominasiyasında "Cəngi" və "Cıdır düzü", müəllim-xoreoqraf Pərvin Nəcəfovanın quruluşunda 8 nəfərdən ibarət "Əks etmə" kollektivi 10-14 yaş üzrə modern rəqs nominasiyasında "Hərbi vəziyyət", "Fikirlər" rəqs nömrələri ilə çıxış ediblər. Hər iki kollektiv IV yerə layiq görülüb.

Akademiyanın rəhbərliyi tərəfindən tələbə və müəllimlərə diplomlar təqdim edilib, kollektivə yeni-yeni uğurlar arzulanıb.

MDB ölkələri gənclərinin XV Delfi Oyunları 10 nominasiya (fortepiano, skripka, akademik oxuma, solo xalq mahnısı, estrada oxuma, xalq rəqsi, müasir rəqs, sirk sənəti, xalq çalğı alətləri, nəfəs alətləri) üzrə keçirilib. İştirakçılar 27 dəst mükafat uğrunda yarışıb.

# Rus Dram Teatrında "Mənim savaşım" monotamaşası

Fevralın 25-də Xocalı faciəsinin 30-cu ildönümü ilə əlaqədar Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində Xalq artisti Aleksandra Nikuşinanın "Mənim savaşım" adlı monotamaşası nümayiş olunacaq.

Azərbaycanın Vətən müharibəsində tarixi Zəfərinə həsr olunan tamaşa Xocalı soyqırımının 30-cu ildönümü münasibətilə təqdim ediləcək. Səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Aleksandr Şarovski, musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Vladimir Neverov, geyim üzrə rəssamı Əməkdar mədəniyyət işçisi Olqa Abbasova, dekorasiya üzrə rəssamı Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorovdur.

Xatırladaq ki, premyerası ötən ilin 8 noyabrında – Zəfər bayramında keçirilən monotamaşa Aleksandra Nikuşinanın Qarabağ münaqişəsi mövzusunda yazdığı şeirlər əsasında səhnələşdirilib. Xalq artistinin "Bu, mənim də savaşımdır" adlı poetik silsiləsi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi diplomuna layiq görülüb.

№14 (1887)
18 fevral 2022
www.medeniyyet.az

# Xarici səyyahlar işğaldan azad olunmuş ərazilərdə

“Qarabağa çoxdan səfər etmək istəyirdim. Gözlədim ki, müharibə bitsin...”



əvvəli səh. 1-də

Əcnəbi səyyahlar Şuşa şəhəri ilə tanış olduqdan sonra fevralın 16-da Ağdama gəliblər. Heyət Ağdamda erməni işğalı və barbarlığından nisbətən salamat çıxmış yeganə tikili – Cümə məscidi ilə tanış olublar. Bildirilib ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib.

Erməni vandalizminə məruz qalan Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilib. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Erməni vandalları Ağdam Cümə məscidində də mal-qara saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Qonaqlar Ağdam şəhərinin dağıntılarına baxıblar. Qeyd olunub ki, Qarabağ xanı Pənahəli xan XVIII əsrdə Ağdamda ağ daşdan ev tikdirib. Ağdam şəhərinin adı da buradan götürülüb. Qədim türk dilində isə Ağdam kiçik qala mənasını daşıyır. Ağdam şəhəri Qarabağ xanlığı dövründə inkişaf edib. Ermənistanın işğalına qədər Ağdam Azərbaycanın nəinki Qarabağ bölgəsinin, ümumilikdə respublikanın ən inkişaf etmiş şəhərlərindən idi. Ağdam Azərbaycan elminə və mədəniyyətinə görkəmli şəxsiyyətlər bəxş edib. Ağdamda həm də Azərbaycan mədəniyyətinin ən vacib nümunəsi sayılan muğam geniş inkişaf edib. Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərib.

Səyyahlar qrupunu müşayiət edən məşhur fotoqraf Reza Deqati Birinci Qarabağ müharibəsi zamanı Ağdam Cümə məscidi və şəhərdə şahidi olduğu ağrı-acılı xatirələri bölüşüb, çəkdiyi fotoşəkilləri qonaqlara təqdim edib, onların suallarını da cavablandırıb.

***

Qeyd edək ki, tanınmış xarici səyyahların səfər proqramı işğaldan azad edilmiş digər əraziləri də əhatə edir. Onlara işğal müddətində yerlə yeksan olan yaşayış məntəqələri, Azərbaycanın maddi-mədəni irsinin, tarixi, dini abidələrinin ermənilər tərəfindən dağıdıldığı barədə məlumat verilir, işğalçıların insanlıq əleyhinə cinayətlərinin izləri əyani nümayiş etdirilir.





Fevralın 17-də heyət Kəlbəcər və Laçın rayonlarında olub. Səfər zamanı qonaqlar Birinci Qarabağ müharibəsi zamanı (1993) Kəlbəcər tuneli qarşısında ermənilər tərəfindən qətlə yetirilən azərbaycanlıların xatirəsini yad ediblər.

Sonra xarici səyyahlar Kəlbəcərin İstisu qəsəbəsinə gəliblər. Qonaqlara məlumat verilib ki, burada məşhur mineral suyu olan “İstisu” bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və sanatoriyası ilə bütün dünyada tanınıb.

Daha sonra qonaqlar Laçın dəhlizindən keçiblər. Onlar yolboyu ətrafda ermənilər tərəfindən dağıdılmış binalara və tikililərə baxıblar.

***

Qonaqlar ilk təəssüratlarını onları müşayiət edən jurnalistlərlə bölüşüblər.

“Mən Londonda yaşayıram. Əvvəllər Bakıda olmuşam, lakin ilk dəfə Qarabağa səfər edirəm”, – deyə ingiltərəli Susan Patricia Rogers bildirib.

O, Qarabağ müharibəsi barədə eşitdiyini, lakin heç vaxt Qarabağa Ermənistan tərəfdən səfər etmək barədə düşünmədiyini bildirib: “Əslində, bu səfər mənim üçün maraqlıdır, çünki Qarabağa çoxdan səfər etmək istəyirdim. Gözlədim ki, müharibə bitsin, təhlükəsizlik bərpa olunsun, sonra səfər edim. Buralar çox gözəldir, həmçinin bu qısa müddət ərzində görülən işlər, çəkilən yol, elektrik və digər işlər təqdirəlayiqdir. Lakin hələ görüləcək işlər çoxdur. Düşünürəm ki, burada quruculuq işləri tamamlandıqdan sonra mən bura yenidən səfər etməliyəm...”.

“Mən üçüncü dəfədir ki, Azərbaycana gəlirəm. Biz buraya Qarabağ regionunun tarixini öyrənmək üçün gəlmişik” – bu fikirləri niderlandlı səyyah Boris Kester Şuşada bildirib.

Qarabağda dağıdılmış binaları, eyni zamanda aparılan tikinti işlərini gördüyünü deyən səyahətçi qeyd edib: “Şuşa çox maraqlı şəhərdir. İnanıram ki, Şuşanın tarixini daha dərindən öyrənəcəyəm...”.

Polşadan olan səyyah Daniel Zaqrodski Şuşada qısa zamanda böyük işlər görüldüyünü qeyd edib: “Eyni zamanda nəzərə alsaq ki, burada əhali yenidən yaşayacaq, hələ görüləcək işlər çoxdur. İlk dəfədir ki, mən televiziyada və ya “Youtube”də deyil, öz gözlərimlə bir şəhərin müharibədə necə dağıdıldığını görürəm. Kədərli görüntüdür, lakin eyni zamanda, bu şəhərdə həyat bərpa olunur Yolboyu gördüyüm dağıntılar sadəcə, dəhşətdir. Bir zamanlar kəndlər olduğu ərazilərdə indi heç nə qalmayıb, hər şey dağıdılıb, silinib. Mən bu yerlərin çoxlu şəkillərini çəkdim. Ağdamdakı görüntülər kədərlidir. Bura “ruhlar şəhəri”nə çevrilib...”.

ABŞ-dan olan səyyah Per Adrian Besson da Ağdamda gördüyü vandalizmin onu mütəəssir etdiyini deyib. O, tezliklə Ağdamda həyatın yenidən canlanacağına əmin olduğunu bildirib: “İnanıram ki, regionda sülh olacaq, inkişaf olacaq. Hər iki ölkə problemləri danışıqlar yolu ilə həll edəcək və birlikdə sülh içərisində yaşayacaq”.

Bosniya və Herseqovinadan səyyah Milana Bojinovic də oxşar fikirləri bildirib: “Ağdamda hər şey dağıdılıb, ancaq bir məscid salamat qalıb. Bütün bunlar təəssüfedicidir. Mənim vətənimdə də ağır müharibə olub, müharibənin dəhşətlərini bilirəm. Ümid edirəm ki, gələcəkdə hər iki ölkə mehriban qonşuluq münasibətləri yaradacaq...”.

## Şuşa – Qarabağın baş tacı

Bölgələrdəki mədəniyyət müəssisələrində “Şuşa İli”nə həsr olunan müxtəlif tədbirlər təşkil edilir.

Şəki Regional Mədəniyyət İdarəsi M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Aşağı Daşağıl kənd Folklor klubunda “Şuşa İli” münasibətilə “Qarabağın döyünən ürəyi” mövzusunda ədəbi-bədii kompozisiya təşkil edilib. Tədbirdə kənd tam orta məktəbin şagirdləri musiqilər ifa edib, şeirlər səsləndiriblər.



Ağdaş RMİ Zərdab rayon Heydər Əliyev Mərkəzində “Hər qarışı tarix söyləyən bənzərsiz Şuşa” mövzusunda tədbir keçirilib. Mərkəzin direktoru Könül Rəhimova çıxışında bildirib ki, 2022-ci ilin ölkəmizdə “Şuşa İli” elan edilməsi qədim şəhərin Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə çarpdırmaq baxımından diqqətəlayiq addımdır.

Sabirabad RMİ Saatlı rayon Heydər Əliyev Mərkəzində “Şuşanın şəxsiyyətləri” adlı layihə çərçivəsində şair Qasım bəy Zakirin (1784-1857) həyat və yaradıcılığına həsr olunan tədbir keçirilib. Tədbirdə Saatlı rayon Gənclər evinin və Saatlı MKS-nin əməkdaşları iştirak ediblər.

Saatlı Dövlət Rəsm Qalereyasında “Şuşa – Qarabağın baş tacıdır” adlı rəsm sərgisi təşkil edilib. Sərgidə rəssamlıq dərnəyi üzvlərinin əl işləri nümayiş olunub.

## Xalqımıza Zəfər ruhu qazandıranlar unudulmur

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə “Qəhrəmanları tanıyaq” adlı layihəyə başlanılıb. Layihə çərçivəsində ilk tədbir şəhid İsfəndiyar Zülalov adına Masallı şəhər 5 saylı tam orta məktəbində təşkil edilib. Muzeyin direktoru Əntiqə Tağıyeva Birinci Qarabağ və 44 günlük Vətən müharibələri, Ordumuzun qazandığı uğurlar haqqında şagirdlərə geniş məlumat verib.



Sabirabad RMİ Hacıqabul rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Vətən müharibəsi şəhidi Mehdi Şıxəliyevin doğum günü ilə əlaqədar ailəsini ziyarət ediblər.

Şəki RMİ Qax rayon MKS-nin C.Cabbarlı adına Mərkəzi Kitabxanasında “Bizə Zəfər qazandıran igidlərimiz” adlı tədbir təşkil edilib. Kitabxananın hərbi-vətənpərvərlik layihəsi çərçivəsində keçirilən tədbir fevralda anadan olan Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunub. Tədbirdə çıxış edən Qax rayon MKS-nin direktoru Güllü Əhmədova torpaqlarımızın işğaldan azad edilməsi naminə canlarını qurban vermiş şəhidlərimizin xatirəsinin dövlətimiz və xalqımız tərəfindən daim uca tutulduğunu, onların adlarının əbədiləşdirildiyini, xatirə komplekslərinin, abidə-bulaqların yaradıldığını diqqətə çatdırıb. Sonra şəhidlərə həsr olunan film nümayiş etdirilib.

Sumqayıt RMİ Sumqayıt şəhər N.Nərimanov adına Mədəniyyət Mərkəzi və C.Cabbarlı adına Mədəniyyət evinin kollektivi Vətən müharibəsi şəhidi Rauf İbadovun ailəsini ziyarət edib, maddi-mənəvi dəstək göstərib.

## Bölgələrdə müxtəlif səpkili tədbirlər

Gəncə RMİ Gəncə şəhər MKS-nin 7 saylı kitabxana filialı Beynəlxalq Kitab Bağışlama Günü ilə əlaqədar “Hərəyə bir kitab” adlı tədbir keçirib. Tədbirdə “14 fevral – Beynəlxalq Kitab Bağışlama Günü” adlı sərgi təşkil olunub. Sərgilənən kitablar sonda kitabsevərlərə hədiyyə edilib.

Sumqayıt RMİ Sumqayıt şəhər Q.Qarayev adına Uşaq musiqi məktəbinin şagirdi Ayla Pənahova (piano) Rumıniyanın paytaxtı Buxarestdə onlayn formatda təşkil olunan “Qış nağılı 2022” adlı beynəlxalq müsabiqədə öz yaş kateqoriyasında 2-ci dərəcəli laureat adına layiq görülüb.



İsmayıllı RMİ Qəbələ rayon Mədəniyyət Mərkəzində uşaqların mədəni-estetik tərbiyəsi və onların mədəni tədbirlərdə iştirakının təmin edilməsi məqsədilə “Uşaq ruhunun zərafəti piano musiqisində” adlı musiqili proqram təqdim olunub. Tədbirdə Mədəniyyət Mərkəzində fəaliyyət göstərən musiqi dərnəyi üzvlərinin ifasında mahnılar səsləndirilib.

Şamaxı rayon Mədəniyyət Mərkəzi, Mirzə Ələkbər Sabirin Ev-Muzeyi və Şamaxı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə “Narkomaniyaya qarşı mübarizə sağlam həyatın təminatıdır” adlı tədbir keçirilib. Çıxış edənlər müasir dövrümüzdə insanlıq üçün böyük bəlaya çevrilən narkomaniya ilə mübarizənin vacibliyindən, ölkəmizdə bu sahədə görülən işlərdən danışıblar. Sonra narkomaniya bəlasının fəsadlarını özündə ehtiva edən “İbrət” adlı film nümayiş olunub.



Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı Niyazi adına Beyləqan rayon Uşaq musiqi məktəbinin binasında aparılan əsaslı təmir işlərinin gedişi ilə tanış olub.

İmişli rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Sarıxanlı kənd Diyarşünaslıq klubunda Xocalı faciəsinin 30-cu ildönümü ilə bağlı tədbir keçirilib. Tədbirdə rejissor Vahid Musatafayevin 2012-ci ildə lentə aldığı “Xocalı” filmi nümayiş olunub.

Ağstafa RMİ Ağstafa rayon MKS-nin Mərkəzi Kitabxanası görkəmli şair və dövlət xadimi Molla Pənah Vaqifin (1717-1797) anadan olmasının 305 illiyi münasibətilə “XVIII əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi – Molla Pənah Vaqif” adlı konfrans keçirib. Tədbirdə kitabxananın əməkdaşları Vaqifin şeirlərindən nümunələr səsləndiriblər.



Qazax rayon MKS-nin Mərkəzi Kitabxanası rayon Mədəniyyət Mərkəzinin qarşısında “Xocalı soyqırımını unutma!” adlı səyyar sərgi təşkil edib. Sərgidə insanlıq tarixinin bu qara səhifəsinə həsr olunan kitab və dövri nəşrlərdən ibarət materiallar nümayiş olunub.



Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzində könüllülər üçün kompüter kursları başlanılıb. Mərkəzin könüllülərinin informasiya texnologiyaları sahəsində nəzəri biliklərini artırmaq, eləcə də onların kompüterdə sərbəst işləmək bacarıqlarını təkmilləşdirmək məqsədi daşıyan kursun ilk dərsi uğurla gerçəkləşib.

Yardımlı Tarix-Diyarşünaslıq Muzeyində muzeyin yaradılmasında böyük xidmətləri olmuş Əməkdar mədəniyyət işçisi Mirzə Rəfiyevin (1922-2001) anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilib. Çıxışlarda ziyalının ömür yoluna nəzər salınıb, muzeyin formalaşmasındakı xidmətləri vurğulanıb.

Saatlı rayonunda “Narkomaniyaya qarşı mübarizə sağlam həyatın təminatıdır” mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi İmişli bölgəsi üzrə şöbəsinin əməkdaşı Elvin İbrahimov, Sabirabad RMİ Saatlı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Sürayyə Zeynalova, Saatlı Gənclər evinin əməkdaşı Anar Səfərxanlı, Seyidlər kənd ümumi orta məktəbinin müəllim və şagirdləri iştirak ediblər.



Xaçmaz RMİ Xaçmaz rayon MKS-nin Padar kənd kitabxana filialı nasir, şair, tərcüməçi Vidadi Babanlının 95 illiyi ilə əlaqədar “Həyatın özünü yazan nasir” mövzusunda tədbir keçirib. Çıxış edənlər ədibin həyat və yaradıcılığı haqqında məlumat veriblər.

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları tərəfindən rayonun Əzizəddin Tahirov adına tam orta məktəbinin 8-ci sinif şagirdləri üçün “Xocalı qətliamı” mövzusunda dərs keçilib. Məktəblilərə erməni silahlı dəstələrinin 30 il öncə fevralın 26-na keçən gecə əliyalın Xocalı sakinlərinə qarşı həyata keçirdikləri soyqırımı barədə məlumat verilib.

## Dövlət Ləzgi Dram Teatrı peşə bayramına hazırlaşır

Qusar Dövlət Ləzgi Dram Teatrı 10 mart – Milli Teatr Gününə hazırlaşır. Yaradıcı kollektiv Azərbaycan peşəkar teatrının yaranmasının 149-cu ildönümü münasibətilə tamaşaçılara xüsusi kompozisiya – Mirzə Fətəli Axundzadənin sevilən səhnə əsərlərindən parçalar təqdim edəcək. Kompozisiyada rəqslər, folklor nümunələri, həmçinin Azərbaycan və ləzgi dillərində mahnı və şeirlər də yer alıb.

Teatrın bədii rəhbəri Faiq Qardaşov bildirib ki, pandemiya dövrü ilə əlaqədar qoyulan məhdudiyyətlər aradan qalxandan sonra kollektiv bir sıra tamaşalar hazırlayıb, o cümlədən Vətən müharibəsinə həsr olunan iki səhnə əsəri təqdim olunub. Teatr peşə bayramına da xüsusi hazırlıq görür. Bu münasibətlə sənət ocağında “açıq qapı” günü keçiriləcək, tamaşaçılar səhnə əsərlərini pulsuz izləyə biləcəklər.



Teatrın quruluşçu rejissoru Bağır Əhmədov qeyd edib ki, kollektiv balaca tamaşaçılarını da unutmayıb, onlara “Tıq-tıq xanım” nağıl-tamaşası təqdim olunacaq.

Qusar Dövlət Ləzgi Dram Teatrı fəaliyyət göstərdiyi 30 il ərzində 100-dən çox səhnə əsərini tamaşaçılara təqdim edib.

Hazırladı: N.Məmmədli

# Gürcü aktyor "Fəryad 2" filmindəki rolundan danışıb

Xəbər verdiyimiz kimi, Xalq artisti, kinorejissor Vaqif Mustafayev "Həyat, deyəsən, gözəldir" ("Fəryad 2") tammetrajlı bədii filmini çəkib. Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" Kinostudiyasında istehsal olunan filmin çəkilişləri Xocavənd rayonunun Hadrut qəsəbəsində, Xızı rayonunda, Bakıda və Abşeronda aparılıb.

Filmdə erməni aşıq-şair Sayat Nova obrazını canlandıran tanınmış gürcü aktyor Aftandil Maxaradze çəkiliş prosesi və rol barədə danışıb. O, V.Mustafayevlə ilk birgə işinin "Nakəs" filmi (1991) olduğunu deyib: "Məni yeni filminə dəvət edəndə razılıq verdim. Çünki Vaqiflə işləmək həmişə xoşdur. Ona görə xoşdur ki, o, sizə həmişə yüksək sənət təklif edir. Bu səbəbdən də onunla işləmək maraqlıdır. Yəqin onun üçün də maraqlıdır ki, mən onunla bir neçə filmdə birgə işləmişəm. Sayat Nova obrazı barədə isə onu deyə bilərəm ki, o bir əfsanədir. Bu obrazı oynamaq mənim üçün çox maraqlıdır. Rejissor həmişə yaradır – bu filmi isə usta çəkir. Ona görə də tamaşaçılar bu filmə baxmalıdırlar. Yenidən dəvət olarsa, bir daha birlikdə işləməkdən məmnun olaram...".



Qeyd edək ki, Aftandil Maxaradze rejissorun "Nakəs" və "Milli bomba" filmlərində baş qəhrəmanları oynayıb.

"Həyat, deyəsən, gözəldir" tammetrajlı bədii filmi erməni işğalçılarının 30 ilə yaxın müddətdə talayıb viran qoyduğu Qarabağ torpaqları uğrunda gedən 44 günlük Vətən müharibəsində Zəfərimizdən bəhs edir. Azərbaycan Ordusunun hücumları nəticəsində ermənilər aciz qalıb təlaşa düşürlər. Əsir alınan erməni əsgərləri arasında iki qardaş da var. Onların sonrakı aqibəti tragikomik janrda olan ekran əsərində əksini tapıb.

Filmin ssenari müəllifi və quruluşçu rejissoru Vaqif Mustafayev, təsvir rejissoru Orxan Abbasov, rəssamı Quram Navrozaşvili, geyim rəssamı Keti Kalandadze, bəstəkarı Tural Məmmədli, prodüseri Fariz Əhmədovdur. Əsas rollarda Hikmət Rəhimov, Sevinc Əliyeva, Nino Qomarteli, Dmitri Samxaradze, Giorgi Celiya və Aftandil Maxaradze çəkiliblər.

**L.Azəri**

# Heydər Əliyev Sarayında şanson gecəsi

Fevralın 22-də Heydər Əliyev Sarayında tanınmış müğənni Cəlal Abbasov və "Shanson cover band" qrupunun konserti keçiriləcək. Saraydan bildirilib ki, saat 20:00-da başlayacaq konsertdə müxtəlif illərin sevilən hit musiqiləri qrupun yeni aranjimanında səsləndiriləcək.

Cəlal Abbasov bir sıra estrada müsabiqələrinin, festivalların ("Vostoçnıy bazar", "Bakı gecələri" və s.) iştirakçısı və qalibidir. Müğənninin repertuarında bəstəkar və xalq mahnılarından savayı, rus, ingilis, italyan və digər dillərdə ifalar var.

Qeyd edək ki, bu, müğənninin Heydər Əliyev Sarayında dördüncü konsert proqramıdır. Onun sonuncu şanson gecəsi pandemiyadan öncə – 2020-ci ilin fevralında bu səhnədə gerçəkləşmişdi.

# Kamera və orqan musiqisi zalında "Günümüzün gəncləri"

Fevralın 28-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında "Gənclərə dəstək" layihəsi çərçivəsində "Günümüzün gəncləri" adlı konsert keçiriləcək.

Musiqi axşamının solistləri – respublika və beynəlxalq müsabiqələr laureatları, Prezident təqaüdçüləri Vurğun Vəkilov və Atabala Manafzadə konsertdə M.Musorqskinin "Sərgidən şəkillər", A.Skryabinin 3 nömrəli "Sonata" (fis-moll, op23), S.Raxmaninovun yeddi nömrəli "Prelüd" (c-moll, op23) əsərlərini ifa edəcəklər.

Qeyd edək ki, "Gənclərə dəstək" layihəsinin əsas məqsədi ölkədə gənc istedadların üzə çıxarılması və dəstəklənməsi, həmçinin dünya və yerli musiqi mədəniyyəti ənənələrinin qorunub saxlanılması və inkişafıdır. Layihə çərçivəsində təqdim olunan proqramlar müxtəlif zövqlərə malik auditoriyaya - muğam, caz, estrada, eləcə də xor musiqisi həvəskarlarına ünvanlanıb.

**Lalə**

# İki yubilyarla bir söhbət



*əvvəli səh. 1-də*

Əvvəldən deyim ki, qrim otağının soyuqluğuna (hazırda binada cari təmir işləri aparılır) baxmayaraq, söhbətimiz xeyli isti, səmimi və təbii alındı. Düzdü, əvvəli gülməli olsa da, arabir ağlamaları da oldu.

Beləcə, özüm üçün çoxdan möhürünü vurduğum bir təyin yenidən gün işığına çıxdı: əsl aktyor, peşəkar ifaçı səhnədə oynamalıdır. Oynayırlar da. Budəfəki qəhrəmanlarım kimi. Səhnədə daim nikbin, xoşbəxt, sevgi və sevinc nümayişçisi, Xeyirin Şər üzərində qələbəsinin tərənnümçüsü (xüsusilə uşaqlar üçün tamaşalarda) olduqları halda birsaatlıq söhbətə yaşları qədər yaşadıqları qüssə və kədər (içində peşmanlıq hissi zərrə qədər də yoxdur) hakim oldu...

Beləliklə, həmsöhbətlərim Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının yubilyar aktyorları – 70 yaşl**ı Əməkdar** artist Vahid Əliyev və 60 **yaşlı fədakar ar**tist Natiq Fərzəliyevdir.

Bu təqdimatı eynilə onlarla söhbətə başlayarkən də dedim.

**N.F.** – Bax e, ay Vahid, yaxşı tapdı – fədakar artist. Neynək, qoy, bu da mənim tamaşaçının verdiyi fəxri adım olsun.

*– Xoşunuz gəlmədisə həmişəcavan deyim.*

**N.F.** – Ay sağ olmuş, cavanlığın qapıdan girməyi ilə bacadan qaçmağı bir oldu. Yaxşıdır, elə olsun fədakar. A balam, səhv demirsən ki, ömrüm sənətdə, səhnədə keçib. Bu saçlar teatrda ağarıb.

*– Söhbətə qocalıqla başlamayaq, Vahid müəllimin dərdi təzələnər.*

Yalnız bundan sonra nəzərlərini dolabına vurduğu şəkildən (söhbət boyu ölməz aktyorumuz Yusif Vəliyev dönə-dönə xatırlandı) çəkən Vahid Əliyev dilləndi:

**V.Ə.** – Əsas ürək qocalmasın, sınmasın, küsməsin.

Lap dilxor oluram. Kədərli keçidlər heç də yaxşıya işarə deyil. Soyuq otaqda dramatizm yükünü nə onlara, nə də özümə rəva görürəm. Odur ki, onları yubiley ovqatına kökləyirəm.

*– Buyurun, deyin görək, yubileyinizi necə keçirdiniz?*

**V.Ə.** – Yubiley deyəndə ki, mən heç vaxt ad günü keçirməyi xoşlamamışam. Ümumən təmtəraqdan, rəsmiyyətdən xoşum gəlmir. Amma buna rəğmən bir vaxtlar valideynlərim, indi isə həyat yoldaşım həmişə ad günümü keçirib.

**N.F.** – Eyni xasiyyətdəyik, elə mən də. Amma ailəm, övladlarım hər ad günümü yaddaqalan etməyə çalışırlar. Yəqin istəyirlər ki, məndən nə isə yadigar qalsın.

*– İnsan həyatda yalnız yadigarının qalması üçün yaşayır ki?*

**N.F.** – Elə olsa, gərək bütün ömrümüzü bizdən sonrakılar üçün yaşayaq. Əslində, bu barədə mən də düşünürəm və sonradan özüm üçün izahını verirəm. Bu ad günü məsələsində isə yəqin övladlarım gələcək üçün xatirələr toplayırlar, saxlayırlar, qoruyurlar.

**V.Ə.** – Ümumiyyətlə, dolça bürcü çox fərqlidir. Onlar yer insanı deyillər, göy adamıdırlar. Natiq də, mən də o xüsusiyyətlərdəyik.

*– Ay Vahid müəllim, elə aktyorlar əsasən göy insanı olurlar. Düzdür, bunu, bu dərvişliyi oynayanlar da az deyil. Amma əsl aktyor elə siz deyən kimi – göy insanıdır...*

**V.Ə.** – Bizim taleyimizə də bu yazılıb da. Qeyri-adi, kövrək adam olmaq, üstünə də aktyorluğu gələndə, olur lap dəhşət.

Bu dəm qartalın qayalarda yuva salması barədə rəvayətini (yazı-pozu ilə məşğul olduğunu bilirdim) danışır və hıçqırtı ilə ağlayır. Bir az çaşıram. Az qala bildiyim bütün zarafatları ortaya töküb onun əhvalını düzəltməyə çalışıram. Məndən fərqli olaraq Natiq müəllim çox rahatdır. Sakitcə tərəf-müqabilinin (həm də) göz yaşlarının qurumasını gözləyir. Sənət dostunun çiyinlərinə qayğı ilə toxunaraq, səssiz toxtaqlıq verir. "Qartal kimi siz də insanlardan inciksiz, xəyalən göylərdə məkan qurmusuz" zarafatımdan sonra özünü toplayıb gülümsəyir.

**V.Ə.** – Qartal Azərbaycan xalqıdır, həm də. Onun yuvasını zəbt etmişdilər və o öz qisasını aldı. İnanın, mən məhz bundan sonra yaşadığımı, nəfəs aldığımı hiss edirəm.

**N.F.** – Vahid, qartal həm də xalqımızın mədəniyyətidir və məncə, o mədəniyyət bütün sahələrin üstündə, daim zirvədə, daim ucalıqda olmalıdır. Yəni əlçatmazlığını saxlamalıdır.

*– Natiq müəllim, bu mif çoxdan dağılıb e. Ümumən necə düşünürsüz, sənət kütləvidirsə, niyə əlçatmaz olmalıdır?*

**N.F.** – Sənətin zirvəsi yoxdur, əslində. Zirvə dediyin məqama çatırsan, orada nəfəs almamış başqa bir hədəf, yüksəklik, yeni zirvə yaranır. Amma siz deyən məsələdə isə daim yüksək sənət, onun dəyərləri uca tutulmalıdır. Çünki xalqın sərvəti onun sənəti və ona münasibətidir.

**V.Ə.** – Televiziya verilişlərində aparıcılar məni təqdim edərkən sənətkar deyəndə qəti etiraz edirəm və deyirəm ki, sənətkar o zaman olur ki, onu çiyinlərdə o dünyaya aparırlar. Ünvanına "Allah rəhmət eləsin, yaxşı sənətkar idi" deyirlər.

*– Vahid müəllim, bu nə maraqlı məntiqdir. İndi sənət adamı sənətkar sözünü eşitmək üçün oturub ölümünü (onda da eşidə bilməz) gözləməlidir?*

**V.Ə.** – Bu mənim hissimdir, qənaətimdir.

*– Başa düşürəm, öz fəlsəfəniz var. Sənətkar bir sənət sahəsi ilə peşəkar məşğul olandırsa, niyə hamıya deməliyik və ya deməməliyik?*

**V.Ə.** – Heç nəyin sonu olmadığı kimi sənətin də, sənətkarlığın da zirvəsi, son nöqtəsi yoxdur.

**N.F.** – İnsan istər sənətdə, istərsə də adi həyatda iz qoymaq, ən azından rəhmət qazanmaq üçün yaşayır. Adam var ki, ömrü yaşamır, sadəcə, yola verir, aldadır, aldanır. Sənət ömrü isə qalıcı, bir az da irəli getsək, əbədi olur.

**V.Ə.** – Əbədiyyət nədir? Mənə görə o, söz ilə yox, əməl ilə qazanılır. Sözü əmələ keçirənlərlə, əməli ilə yaşayanlarla.

*– Əməl bəzən sözə, söz də əmələ çevrilir. Nəticədə əbədiyyət xülyaları ilə aldana da, aldada da bilirik.*

**V. Ə.** – Razıyam, haqlısız. Yox, Natiq, hərdənbir qadınlarla razılaşmaq da lazımdır. (gülür).

**N.F.** – Yox, amma bizdə deyirlər ki, qadın sözünü eşit, amma əməl eləmə.

**V.Ə.** – Yox, Natiq, səhv fikirdir. Əgər qadının dediyindən nəticə



çıxarsan, ömrünün axırınadək xoşbəxt olacaqsan. İcazənlə sənə deyim ki, səhvsən.

Söhbəti bir az da qızışdırıram və "Bu qadının müdrikliyinə görədir, yoxsa" sual-atmacasına keçirəm.

**V.Ə.** – Qadınlar çox vaxt kişidən bir addım irəlini görürlər.

**N.F.** – Vahid, hə, sən deyən olsun. Görmürsən, bir qadın bizi mübahisə üçün qızışdırır? (gülürlər).

**V.Ə.** – Adətən qoca Şərqdə qadına münasibət fərqlidir. Amma mən özümü, dünyanı dərk edəndən qadına əlçatmaz varlıq kimi baxıram. Anamı sevdiyimə görə həyatım boyu qadın sevgisinin müqəddəsliyinə inanmışam. Bilirsiz, mən anama görə nəinki xaricdəki yaxşı təklifi, orada qalıb işləmək perspektivini rədd etmişəm, həm də onun bəyəndiyi qızla ailə qurmuşam. Üzünü belə görmədən. Peşman da deyiləm. Nə anamın "Oğlum, sənin üçün darıxıram, geri qayıt" çağırışına cavab verməyimə görə, nə də onun seçdiyi həyat yolu ilə getdiyimə görə.

*– Natiq müəllim, sənət adamları kövrək olduqları qədər də möhkəm iradəyə sahib olurlar. Bu mənada özünüifadə yaşa dolduqca daha çətin olur, yoxsa asan?*

**N.F.** – Təbii ki, yaşa dolduqca. Çünki sən bütün sınaqlardan həm insan, həm də aktyor kimi rahatlıqla çıxırsan.

**V.Ə.** – Etiraz edirəm, əslində, çətinləşir (bu zaman Natiq müəllimin pıçıltıyla dediyi "Sən də bu gün ancaq mənə etiraz elə" sözlərinə gülməkdən özümü güclə saxlayıram – H.N.). Çünki həyatda ən çətin şey qanmazı qandırmaqdır. Səhnə, sənət də hər adamın işi deyil, qadası. Heç də hər kəs oradan çıxıb böyük zala söz deyə bilməz. Gərək nə dediyini, nə göstərdiyini əvvəl özü qana.

**N.F.** – Səhnə başqa, efir tam başqadır. Gərək səhnədə olan ondan bir pay hali ola, onu hiss edə, yaşaya, duya. Aktyorun böyüklüyü ondadır ki, tamaşaçıdan yüksəkdə dayana.

*– İcazə verin, sizinlə razılaşmayım. Çünki aktyorun, rejissorun, lap elə dramaturqun işi özünü tamaşaçıdan ağrılı göstərməyə çalışanda bitir. Siz deyən o maarifçilik də mifə çevrilib...*

**N.F.** – Düz deyirsiz, razıyam. Amma mən başqa məqamı deyirdim. Məsələn, aktyor oyununda da, tamaşaçıya münasibətində də səmimi, sərbəst və yüksək səviyyəli olmalıdır.

**V.Ə.** – O gün ki aktyor özünü tamaşaçıdan üstün tutdu, xudbinliyə yuvarlandı, onu diri-diri basdırmaq lazımdır. Təbii ki, mənən. Özünü dərk edən insanlar



özündənrazı ola bilməzlər. Böyük sənət böyük "mən"dən başlayır və çalışıb onu qorumaq lazımdır. Mən kişilik məktəbini həyatda atamdan, sənətdə isə Yusif Vəliyevdən öyrəndim. Ona görə də...

Sözünü tamamlamamış yenə də ağlamağa başlayır və mən naəlac yeni gedişə başlayıram.

*– Vahid müəllim, axı, səhərin gözü açılmamış sizi kim belə incidib ki, heyfini bizdən çıxırsız?*

**V.Ə.** – İndi yox, amma ümumən sənətdə çox incidilmişəm. Yox, incidilmək azdı, döyülmüşəm, mənən çox döyülmüşəm.

Bu arada Natiq müəllim fürsət tapıb fikrini tamamlayır.

**N.F.** – Yaxşı aktyor heç vaxt özündən razı ola bilməz.

*– Gözəl insanlar, ancaq incidib-incidilməkdən danışsaq, gərək ağlaşaq (yarızarafat dediyim bu sözlər ağzımda donsa da, ortalığa təsəlli qatıram). 60 da, 70 də böyük ömür yoludur. Maşallah, siz də həyat dolu adamlar, gəlin, bir az rollarınızdan danışaq. Vahid müəllim, sonuncu dəfə bu teatrda hansı tamaşada oynamısız?*

**V.Ə.** – İnanın ki, yadımda deyil. Yadımdadır e, sadəcə, xatırlamaq istəmirəm.

**N.F.** – Əsasən böyüklər üçün oynasaq da, son olaraq ötən həftə "Tıq-tıq xanım" tamaşasında oynamışam.

**V.Ə.** – Bu illər ərzində təkcə aktyorluqla deyil, teatrşünaslıqla da məşğul olmuşam. Natiq gözəl aktyordur, o, tipaj aktyordur. Sadəcə, bəxti onda gətirməyib ki, o, Azərbaycanda doğulub. Rusiyalı rejissorların dedikləri "Sizin rejissorlar hara baxırlar ki, sizi görmürlər?" sözləri hələ də yadımdan çıxmır. Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, nə onun, nə də mənim teatrda potensialımız açılma, özümüzü ifadə edə bilmədik.

**N.F.** – Razıyam, bizdən istifadə olunmadı və artıq yaşa dolduq. Bunun da səbəbi, təbii ki, rejissuradadır. Belə işləyirik e, bekar deyilik, rollarımız var. Mən buradan əlavə Bakı Uşaq və Gənclər Teatrında da çalışıram. Amma aktyor kimi öz potensialımı göstərdiyim rollar olanda daha xoşbəxt, daha azad oluram.

**V.Ə.** – Bu teatrda irili-xırdalı 80-dən artıq rol oynamışam. Amma bu, daha çox bu teatra digər iki teatrın birləşməsindən əvvəl olub. Çox vaxt həmkarlarım mənimlə dublyor olmaqdan imtina edirdilər, bilirdilər ki, mənim oyunum əsas olacaq.

**N.F.** – Dublyorun olması mükəmməldir. Çünki hamımız insanıq və hər an başımıza nə isə gələ bilər. Amma gərək dublyorlar bir-birini təqlid etməsinlər, öz xarakterlərini və aktyor xırdalıqlarını orada tətbiq etsinlər. Dublyorla tamaşa həm də rəqabət, yaxşı müqayisədir, aktyorun yarışıdır. Elə aktyor var ki, uzun müddət işsiz, rolsuz qalır. Dublyorluq elə bunun üçün də vacibdir. Sadəcə, bu, bizim yox, rejissorların verdiyi qərardır.

Bu məqamda Vahid müəllim "Ələddinin sehrli çırağı" tamaşasındakı Cin rolundan həvəslə danışır, ona qatdığı xırdalıqları sadalayır.

*– Gəlin, özünüzü ifadə etdiyiniz, tapdığınız rollardan danışaq.*

**V.Ə.** – Televiziyada oynadığım "Bəxtsiz cavan" tamaşasındakı rol ilə həm tanındım, həm də sevildim. O vaxta qədər teatrda da mənə əməlli-başlı rol vermirdilər. "Bəxtsiz cavan" mənə bir gecənin içində populyarlıq gətirdi. Əslində, o rolu da çətinliklə qazandım. İnanın, ömrüm mübarizədə, döyüşdə keçdi. Çox arzularım qaldı. Kvazimodo, Kral Lir arzuları ilə gəldim 70-lə salamlaşdım.

**N.F.** – Eh, dərdimi təzələdiz. O qədər oynamaq həsrətində olduğum rollar var ki. Sənət müəllimim, rəhmətlik Nəsir Sadqızadə tez-tez "Aktyor üçün təhsil, savad, istedaddan əvvəl şans lazımdır" deyirdi. Haqlı idi, şansın yoxdursa, çarpışmağın mənası yoxdur.

**V.Ə.** – Natiqlə bu dəfə də qismən razı deyiləm. Götürək mənim timsalımda. Bir rol ilə populyarlaşdım, tanındım, şanslı olduğumu hiss etdim. Amma nəticəsi nə oldu? Mən nə onu fürsətə çevirib qapılarda, qəbullarda qalmadım, nə də sinəmə döyüb "mən-mən" demədim. Deməli, əsl sənət böyük mənlik nümayişindən başlayır və mən çoxlarının şans dediyi o minnətçi düşməyi, dilxoşluq etməyi, gözə girməyi bacarmadım. Düşündüm ki, mən işim ilə məşğulam və görüb dəyərləndirmək başqalarının işidir. Amma bəzi aktyor yoldaşlarım, mənim oyunumdan (qoy desinlər Vahid özünü öyür) nələrisə çırpışdıranlar asanlıqla fəxri adlar da alıblar...

**N.F.** – Əslində, sənətə fəxri ad üçün, məşhurluq üçün gəlməmişəm. Sevdiyim işimlə məşğul olmuşam, sənətə, teatra, səhnəyə heç vaxt xəyanət etməmişəm. Əmin olun, heç zaman da nə özümü, nə də sənətimi qapılar arxasında qoymamışam. Vallah, əsas xalqın sevgisi, tamaşaçının münasibətidir. Əsas teatr yaşasın, tamaşaçı onu sevsin, qorusun. Çünki teatr xalqın mədəni-mənəvi dəyəri, sərvətidir.

*– Hər teatrın öz üslubu, yaradıcılıq dəst-xətti, oturuşmuş ənənəsi vardı. Bu, indi də belədir?*

**V.Ə.** – Bunu məndən çox ağzına su alıb susan, gözləmə mövqeyində olan, universitetlərdə bu sahə üzrə dərs deyib çalışdıqları halda teatrşünaslıqdan uzaq düşən teatrşünaslar deməlidirlər. Son onillikdə oynadığım tamaşalardan bir teatrşünas yazısına – təhlilinə, tənqidinə rast gəlməmişəm. Deməli, teatr heç onlara da maraqlı deyil.

**N.F.** – Yazırlar e, onda da müəyyən rejissorlardan, aktyorlardan yazıb, onlara tərifnamələr söyləyirlər. Vallah, demirəm e tərif etsinlər, razıyam, tənqid yazsınlar, amma bir fikir, mövqe ortaya qoysunlar. Axı, bu həm də teatrımızın tarixidir.

**V.Ə.** – Ona görə də son bayatımda yazmışam ki...

*– Teatrşünaslara bayatı həsr etmisiz? (gülürük).*

**V.Ə.** – Yox, qoy onlar hələ gözləsinlər. Bayatını həyat və sənət böhranlarında olanda yazmışam və istəyirəm elə sözümü də bununla qurtaram. Yadınızda kədərli adam kimi qalsam da. Hərçənd mən həyatsevər və zarafatcıl adamam. Amma nə etmək olar ki?!

Artıq söhbətin hara getdiyini və gülüşümüzün kövrək notlara köklənərək üz-gözümüzə bulaşacağını yəqin edib diqqət kəsilirik. Məndən fərqli olaraq Natiq müəllim daha hazırlıqlı görünür. Deyəsən, o, bayatının ilk dinləyisici deyil və mütləq bu söhbət deyişmə ilə bitəcək.

Benefis-tamaşada son monoloqunu deyirmiş kimi qəddini düzəldib, üz-gözünü obraza salan Vahid müəllim titrək səsi ilə bayatısını (ağrısını) dilə gətirir:

*Qaranlıqdan çıxdım günə,*
*Günü gördüm, gün görmədim.*
*Nahaq görüm, haqqı gəzdim.*
*Nahaq gəzdim, haqq görmədim...*

*– Təəssüf ki, elə. Deməli, Vahid müəllimlə bu söhbətin taleyinə nisgil yazılıbmış, hə, Natiq müəllim? Odur ki, gəlin, heç olmasa, sizinlə 61 yaşınıza nikbin girək.*

**N.F.** – Nikbin? Niyə aldadım sizi də, tamaşaçıları da. Yox, elə mən də onun bayatısına bir bənd şeirlə cavab verəcəm. Söhbətin əl-qolunu "bağlamaq" sizlikdir.

*Haqq üzülüb, ədalət də azalıb.*
*Mərdin qismətinə namərd yazılıb.*
*Bu dünyanın kişiləri azalıb,*
*Baş götürüb o dünyaya gedirəm.*

Vəssalam. Bu da plan-proqramını başqa cür cızdığım komik-teatral söhbətin poetik-dramatik sonu...

**Həmidə Nizamiqızı**

# Fevral ayında doğulanlar

## Milli Qəhrəman və şəhidlər haqqında videoçarx

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) 6 nömrəli filialı fevral ayında doğum günləri olan Milli Qəhrəman və şəhidlərimiz haqqında videoçarx hazırlayıb.

Baş idarədən bildirilib ki, hər ay doğum günləri olan qəhrəmanlarımız haqqında məlumat xarakterli videoçarxların hazırlanaraq sosial şəbəkələrdə yayımlanması uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi yönündə görülən işlərə dəstək xarakteri daşıyır.

Videoçarxda fevralda dünyaya gəlmiş 41 Milli Qəhrəman və şəhidin fotoları, şəxsi və döyüş istiqamətləri haqqında materiallar, eləcə də Ali Baş Komandanın təltif fərmanları haqqında məlumatlar yer alıb.

# Ərəb mətbuatında Molla Pənah Vaqif haqqında məqalə



İordaniyanın "Əl Ənbat", "Cohina" və "Nəbd Əl Balad" qəzetləri və Əlcəzairin "Əl Hərir" portalında görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin yaradıcılığına həsr olunmuş məqalə dərc olunub.

İordaniyalı akademik Mərvan Sudanın müəllifi olduğu məqalədə şairin həyat və yaradıcılığı haqqında müfəssəl məlumat yer alıb. Qeyd olunur ki, bu il anadan olmasının 305 və vəfatının 225-ci ildönümü qeyd olunacaq Vaqif dövrünün ən məşhur şairi, eyni zamanda Qarabağ xanının vəziri kimi müdrik şəxsiyyət olub. "Azərbaycanda xalq arasında məşhur bir deyim var; hər oxuyan Molla Pənah olmaz. Bu, şair və dövlət xadiminin el arasında müdrikliyinin təzahürüdür", - deyə M.Suda yazır.

Müəllif sovet dövründə, Azərbaycanda çalışdığı vaxt poeziya antologiyasında Vaqif yaradıcılığı barədə ərəb dilində ilk məlumatı əldə etdiyini, şairin şeirlərinin ərəbcəyə tərcüməsinin zəruri olduğunu da diqqətə çatdırır.

# Ağdam teatrının aktyoru Nizami Əsgəroğlu vəfat edib

Ağdam Dövlət Dram Teatrının aparıcı aktyoru Nizami Əsgəroğlu fevralın 15-də, ömrünün 64-cü ilində uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib.

Nizami Əsgər oğlu Ələkbərov 20 dekabr 1958-ci ildə Qərbi Azərbaycanda – Ermənistan SSR-in Artaşat (1945-ci iləədək Qəmərli) rayonunun Yamancalı kəndində anadan olub. Uşaqlıqdan teatra böyük maraq göstərib. Aktyor təhsili olmasa da, dram dərnəyindən peşəkar teatra gəlib. 1978-ci ildən İrəvan Dövlət Azərbaycan Dram Teatrında fəaliyyətə başlayıb. 1980-ci ildən taleyini Ağdam Dövlət Dram Teatrı ilə bağlayıb. Qocaman sənət ocağının səhnəsində bir-birindən maraqlı, xarakterik rollar oynayıb.



1990-1993-cü illərdə Qazax Dövlət Dram Teatrında fəaliyyət göstərib. Bir müddət səhnədən uzaq düşməyinə baxmayaraq, sənət onu yenidən öz ağuşuna alıb və 2005-ci ildən ömrünün sonunadək Ağdam teatrında çıxış edib. Aktyorun ifasında Cəfər Cabbarlının "Aydın"ında Novruz bəy, Yusif Əzimzadənin "Mən Molla Nəsrəddin olacam" tamaşasında Şah, Elçin Hüseynbəylinin "İmperator"unda Kişi, Sahib İbrahimin "Sadığın toyu"nda Salman, Sevinc Elsevərin "Ürəyində arzu tut"unda Həsrət, Vasili Siqarevin "Ağ ölüm"ündə Ata, Şarl Perronun "Sehrbaz qadın"ında Nağılçı, Arif Mədətovun "Çarəsiz evlənmə"sində Şahgəldi və s. rolları yerli teatrsevərlərin yaxşı xatirindədir.

Allah rəhmət eləsin.

# "Rənglərin sirri elə özümdədir..."

## Miniatürçü rəssam Fəxrəddin Əli dünyasını dəyişib

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş rəssamı, miniatür sənətinin peşəkar davamçısı, Əməkdar mədəniyyət işçisi Fəxrəddin Əli fevralın 8-də dünyasını dəyişib.

Fəxrəddin Vəli oğlu Əli 10 may 1938-ci ildə Zəngəzur mahalında, Mehri rayonunun Nüvədi kəndində sənətkar ailəsində anadan olub. 1952-ci ildə yeddiillik kənd məktəbini bitirdikdən sonra təhsilini Ordubad şəhərindəki Pedaqoji məktəbdə davam etdirib. 1958-ci ildə Bakı Rəssamlıq Məktəbində, 1964-1969-cu illərdə Rəssamlıq İnstitutunda təhsil alıb. Rəssamın "Babək" qobeleni diplom işi Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində qızıl medala layiq görülüb.

Fəxrəddin Əli əmək fəaliyyətinə İmişli rayonunun Cəfəri kənd orta məktəbində müəllim kimi başlayıb. O, 1970-ci ildə "Həyatın gözəlliyi" adlı əsəri ilə respublika sərgisində iştirak edib. "Dədə Qorqud" dastanı, M.Şəhriyarın "Heydərbabaya salam", Əssar Təbrizinin "Mehr və Müştəri" poemaları, Nizami Gəncəvinin "Xəmsə"si, həmçinin Nəsimi, Yunus Əmrə, Füzuli, Aşıq Veysəl, M.P.Vaqif, M.F.Axundzadə, Ə.Vahid və digər sənətkarların əsərlərinə maraqlı miniatürlərin müəllifidir. Rəssamın Azərbaycan muğamlarına çəkdiyi miniatürlər, "Şəhidlər" xalçası, şəxsi portretləri də maraqla qarşılanıb.



Bir neçə kitabın müəllifi olan rəssamın əməyi yüksək qiymətləndirilib. Prezident İlham Əliyevin 3 noyabr 2015-ci il tarixli sərəncamı ilə Fəxrəddin Əli "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 2021-ci ildə müəllifi olduğu Nizaminin portretlərinin və "Xəmsə"nin beş poemasının hər birinə çəkdiyi yüzdən çox illüstrasiyanın (miniatür) yer aldığı nəfis tərtib edilmiş çoxcildliyə görə AMEA-nın fəxri fərmanı ilə təltif olunub.

Fəxrəddin Əlinin əsərləri AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, eləcə də ölkəmizdə və xaricdə bir neçə muzeyin fondunda saxlanılır.

Ötən ilin aprelində qəzetimizə müsahibəsində sənətkar demişdi: "Mən ixtisasca həm də şərqşünasam. Əlyazmalar İnstitutunda çalışıram. Bütün klassikləri orijinaldan oxumağa imkanım olub. Nizamiyə gələndə isə mən göz yaşlarımı saxlaya bilmirəm. XII əsrdən gələn bir insan əsrlərdir böyüklüyünü qoruyub. Nizami də, Nəsimi də, Füzuli də qüdrət sahibidir və onları Tanrı Azərbaycana pay verib". Əsərlərindəki rənglərin sirrini isə Fəxrəddin Əli belə izah edirdi: "Rənglərin sirri elə özümdədir. Parlaq və qırmızı rənglərə üstünlük vermişəm hər zaman... Tələbə dostlarım çox vaxt mavi rəngdən istifadə edirdilər və mənim bu rənglərə müraciətim onlarda maraq doğurardı. Deyirəm ki, bu rənglərə bağlılıq bizim kökümüzdədir. Miniatürdəki rənglərə sevgimiz günəşdən enerji alır...".

Xeyirxah və vətənpərvər insan, istedadlı rəssam, ləyaqətli şəxsiyyət Fəxrəddin Əlinin parlaq xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

**Lalə Azəri**

# Ordubaddan başlanan səhnə yolu

Bəzi teatrlarımız aktrisa çatışmazlığı problemi yaşadığı bir dövrdə səhnəyə gələn, onun inkişafına öz töhfəsini verən sənətkarlarımızdan biri Xalq artisti Roza Cəfərxanova olub. Görkəmli aktrisa dolğun səhnə fəaliyyəti ərzində rəngarəng obrazlar qalereyası yaradıb. Unudulmaz sənətkarı anadan olmasının 95 illiyi münasibətilə yada saldıq.

Roza Heydər qızı Cəfərxanova 13 fevral 1927-ci ildə Ordubad şəhərində dünyaya göz açıb. Şəhərdəki mədəni mühit onda erkən çağlardan teatra həvəs oyadır. Hələ məktəbli ikən dram dərnəyinin hazırladığı tamaşalara qatılır. Orta məktəbi bitirdikdən sonra ilk sənət fəaliyyətinə şəhərdə yenicə açılan dram teatrında başlayır. Beləliklə, Roza Cəfərxanova taleyini həmişəlik teatrla bağlayır. O, Ordubad Dram Teatrında Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyasında Gülnaz, "Arşın mal alan"da Asya, "Ər və arvad"da Minnət xanım, Səməd Vurğunun "Vaqif" dramında Gülnar, "Fərhad və Şirin"də Şirin və digər rollarda oynayır. Aktrisa altı il bu teatrda çalışır. 1945-ci ildə muxtar respublikanın "Əməkdar artist"i adına layiq görülür.

Roza Cəfərxanova 1948-ci ildən indiki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnə fəaliyyətini davam etdirir. Yaradıcılıq imkanlarını, bacarıq və istedadını bu kollektiv qarşısında da göstərir. Gündən-günə diqqətçəkən və parlayan aktrisa kollektivin sevimlisinə çevrilir. Səhnədə oynadığı baş və epizodik rollar tamaşaçılar tərəfindən maraqla qarşılanır. Bununla da teatrın aparıcı aktrisaları sırasında özünə layiqli yer tutur. O, bu səhnədə iki yüzdən artıq lirik, dramatik və komik rolda çıxış edib. Pəri "Pəri cadu" (Ə.Haqverdiyev), Yetər "Hacı Qəmbər" (N.Vəzirov), Ana "Astana" (A.Dudarev), Həyat "Həyat" (M.İbrahimov), Pəri, Susanna, Dilbər, Sitarə, Sona, Solmaz, Yaxşı – "Solğun çiçəklər", "Aydın", "Sevil", "Nəsrəddin şah", "1905-ci ildə", "Od gəlini" və "Almaz" (hamısı C.Cabbarlı), Kabato "Xanuma" (A.Saqareli), Zəhra, Çin qızı "Şeyx Sənan" və "Səyavuş" (H.Cavid), Pəri "Qız atası" (Əfqan), İradə "Göz həkimi" (İ.Səfərli),



Hökmdar "Pompeyin Qafqaza yürüşü" (N.Həsənzadə), Sənəm, Xala "Məşədi İbad" və "Arşın mal alan" (Ü.Hacıbəyli) və başqaları aktrisanın uğurlu yaradıcılıq işləri sayılır.

Əməyi yüksək qiymətləndirilən sənətkar 1984-cü ildə Azərbaycan SSR-in "Əməkdar artist"i fəxri adını alır. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktor müavini Səməd Canbaxşıyev sənətkar haqqında yazır: "1997-ci ildə Naxçıvan teatrına təzəcə gəlmişdim. Mədəniyyət və İncəsənət Universitetindən yenicə məzun olmuşdum. Teatrın rejissorunun olmadığından istifadə edən bir aktyor M.F.Axundzadənin "Lənkəran xanının vəziri" komediyasını plandankənar səhnələşdirmək istəyirdi. Böyük səhnə ilə tanışlığım o qədər də çox deyildi. Amma "rejissor" bu tamaşada mənə əsas rollardan olan Teymur ağa obrazını verirdi. Mən isə ona etiraz etdim. Bildirdim ki, mənim elə səhnə təcrübəm yoxdur. Bu rolun öhdəsindən gələ bilmərəm. İlk olaraq mənə epizodik rol verilməsini xahiş etdim... Həmin anda Roza xanım mənə yaxınlaşıb çox sakit səslə dedi: "Səməd, oğlum, səndən xoşum gəldi. Çünki indi



teatra gələn gənclər ilk dəfədən baş rol oynamaq iddiasında olurlar. Gərək özünü əvvəl-əvvəl kiçik, epizodik rollarda sınayasan. İstedadını, bacarığını kollektiv qarşısında sübut edəsən. Bundan sonra böyük teatr yoluna başlamaq olar. Həmin gündən Roza xanımla səmimi münasibətlərimiz başladı...".

Mənbələrdə qeyd edilir ki, Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində Roza Cəfərxanovanın son çıxışı Nəriman Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" tamaşasında olur. Qocaman sənətkarın yaddaşı sözünə baxmırdı. Bir gün səhnədə yaddaşı onu çətin vəziyyətə salır. Tərəf-müqabili olan Xalq artisti Rza Xudiyevə astadan: "Bahoo, korladım" deyir. Ancaq tamaşaçılar yaranan gərginliyi hiss etmir. Bundan sonra Roza Cəfərxanova teatrdan ayrılır...

Görkəmli sənətkar 2000-ci ildə "Xalq artisti" fəxri adına, 2002-ci ildə isə Prezident təqaüdünə layiq görülüb. Xalq artisti 18 may 2010-cu ildə Naxçıvan şəhərində vəfat edib.

**Savalan Fərəcov**

# Qanlı dərədə ermənilərə, Sarvan stansiyasında bolşeviklərə meydan oxuyan Qaçaq Mayıl

Azərbaycanın şimal bölgəsində Qaçaq Mayıl adı çox məşhurdur. Ermənilərə və bolşeviklərə qarşı mübarizəsi ilə tanınan Mayıl Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ilə yaxın münasibətdə olub.

Qaçaq Mayıl kimi tanınan Zahirov Mayıl Zahir oğlu - XIX əsrdə qaçaq hərəkatının Azərbaycanın şimal bölgəsindəki lideri, ermənilərin Azərbaycanın müxtəlif rayonlarına, o cümlədən Qubaya hücumlarına qarşı vuruşan şəxslərdən biri olub.

O, XIX əsrin 60-cı illərində Quba qəzasında, Qonaqkənddə dünyaya gəlib. El arasında igidliyi və mərdliyi ilə ad çıxaran Mayıl 1915-ci ildə Qonaqkənd nahiyəsinin yüzbaşısı seçilir. Bu dövrdə mahalın Xaltan, Cimi, Buduq, Rük, Mücü kəndləri ona tabe idi. Səsvermə mahalın din xadimlərinin, ağsaqqallarının və hörmətli şəxslərinin iştirakı ilə aparılıb. Yüzbaşı vəzifəsi Quba qəzasına nəzarət edən çar nümayəndəsinin təqdimatı əsasında Tiflis şəhərində yerləşən Qafqaz canişinliyində rəsmən təsdiq edilirdi.

Mərd insanları ətrafına yığdığı və onlara arxalandığı üçün Mayılın çoxlu düşmənləri ortaya



çıxmışdı. Düşmənçilik edənlər ona qarşı açıq silahlı mübarizə aparırdılar. Mayıl düşmənlərinin çox olmasını nəzərə alıb dağların döşündəki Xaşı kəndində iqamətgah tikdirərək orada yaşayıb.

Qaçaq Mayıl dəfələrlə erməni-bolşevik quldur dəstələrinə qarşı igidliklə döyüşüb. 1918-ci ildə əvvəlcədən qurulmuş plana görə, daşnak qoşunu Şamaxını tutduqdan sonra dağlardan keçən Xaltan yolu ilə Qubaya gəlməli idi. Lakin onların bu mənfur planlarının qarşısı alınır. Qonaqkəndli Qaçaq Mayıl öz dəstəsini vaxtında səfərbər edərək düşmənin irəliləməsinə imkan vermir. Nügədili Əbülfəzin və Ləzgi İsmayılın dəstələri də ona qoşulub.

Quba qəzasında qırğınlar törətmiş daşnak Amazaspın arzusu Üçgün və Kilit kəndlərinə keçərək Şahdağa çatmaq idi. Amma bu arzusu ürəyində qaldı. Digah kəndi ərazisində indi Qanlı dərə adlanan yerdə Möhübəli Əfəndinin, Hatəm Ağanın, Əli bəy Zizikskinin, Bəybala bəy Alpanskinin və Qaçaq Mayılın birləşmiş dəstələri daşnaklarla döyüşə girib onları məhv ediblər.

Qaçaq Mayılın Azərbaycan Xalq Cümhuriyyətinin fəalları ilə sıx əlaqəsi və dostluq münasibətləri olub. Mayılın şəxsən Məhəmməd Əmin Rəsulzadə ilə dostluq münasibətləri olduğu bildirilir. Rəsulzadə Lahıcda olduğu vaxtlarda Mayıl daim onun vəziyyəti ilə maraqlanıb, ona yardım edib.

1920-ci illərdə bolşevik Rusiyasının XI Ordusu Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə Samur çayından keçəndə onlara qarşı ilk müqaviməti Qaçaq Mayılın dəstələri (oğlanları Osman və İbrahim də daxil olmaqla) göstərib. Ağır döyüşlər indiki Şabran rayonunun Sarvan ərazisində baş verib.

Yalama stansiyasında döyüş bitdikdən sonra Qaçaq Mayılın rəhbərliyi ilə Sarvan stansiyasında relslər sökülüb. Silahlılar əlverişli mövqe tutub. Rus ordusunu gətirən qatarın hərəkəti dayandırılıb və bununla da qızğın döyüş başlayıb. Pulemyotlardan atəş açan rus əsgərləri qısa vaxt ərzində dağınıq halda hücum edən yerli əhalini sıxışdıra bilir. Dəstəyə rəhbərlik edən Mayıl məğlub olduqlarını görərək, sağ qalanlarla birlikdə Babadağa çəkilir.

Mayıl təslim olması barədə təkliflərə rədd cavabı verir. O, təslim olmadıqca ətrafına toplaşanların sayı artmağa başlayır. Quba İcraiyyə Komitəsinin rəhbəri Hüsü Hacıyev 4 nəfərlə birbaşa Qonaqkəndə, Mayılın görüşünə yollanır. Qaçaq Mayıl qonaqların şərəfinə süfrə açdırır. Bu görüşdə Hüsü Hacıyev rəsmi əmrlə möhürlənmiş məktubu Mayıla təqdim edir. Qaçaq Mayıl ətraf dağların nəzarətçisi təyin edilirdi. Amma Mayıl təklifə rədd cavabı verir.

Hüsü Hacıyevin əliboş qayıtması mərkəzi hakimiyyəti narazı salır. İşi bitirmək üçün NKVD-yə tapşırıq verilir. Qaçaqların arasındakı casus xəbər verir ki, 1924-cü il mayın 24-ü Mayıl Dədəgünəş dağına Həzrət Baba ziyarətgahına gedəcək. Babadağda son ziyarətini edən Qaçaq Mayıl geri qayıdarkən Utuq dərəsində pusquya salınır. Qarşıdakı qayalıqlardan hədəfə alınan Mayıla iki güllə dəyir.

Mayıl qətlə yetiriləndən sonra Qonaqkənd ərazisinə sovetlərin bayrağını sancmaq mümkün olur. Bu ərazi Azərbaycanda Sovet hökumətinin ən gec bərqərar olduğu yaşayış məntəqələrindən sayılır.

Qaçaq Mayıl Xaşı kəndində dəfn olunub. Onun üç qızı, dörd oğlu olub. Mayılın öldürülməsindən sonra sağ qalan üç oğlu Babadağa çəkilib və burada mübarizəni davam etdirib. Uzun mübarizədən sonra qardaşlar həbs edilir. Məhkəmənin qərarı ilə hər üçünü sürgünə yollayıblar. Uzun illər sonra qardaşlar Azərbaycana qayıdaraq müxtəlif rayonlarda, başqa adlarla yaşasalar da, bu, hamıdan gizli saxlanılıb.

Qaçaq Mayılın qızı Seyrə Zahirova Sumqayıt şəhərində yaşayıb. Beş övladı və nəvələri var.

Təngə dərəsi adlanan ərazidə sıldırım qayalıqda yerləşən mağara Qaçaq Mayılın əsas istehkamlarından sayılır. Bura Qubaya gələn turistlərin də ziyarət etdiyi məkanlardandır.

Qaçaq Mayılın Qonaqkənddəki mülkü qorunub saxlanılıb. Amma evdə yaşayış olmadığından baxımsız vəziyyətdədir. Qonaqkənd sakinləri bu evin təmir olunaraq xatirə muzeyi kimi fəaliyyət göstərməsini arzulayır...

**Elxan Yusifli**

Novruza doğru

# Su çərşənbəsi – 22.02.2022

## Novruzun ilk çərşənbəsi bu dəfə tarixin güzgü ilə bölündüyü günə tən gələcək

Xalq təqviminə görə, qış fəsli üç hissəyə bölünür: dekabrın 21-dən yanvarın 30-dək Böyük çillə (40 gün), yanvarın 31-dən fevralın 19-dək Kiçik çillə (20 gün), fevralın 20-dən martın 20-dək isə Boz aydır. "Çillə" ağrı-acı deməkdir ki, bu da qışın sərtliyinin insan düşüncəsində obrazlaşmış ifadəsidir.

Artıq Kiçik çillənin cəmi ikicə gün ömrü qalıb. Qarşıdan Boz ay və Novruzun müjdəçiləri olan ilaxır çərşənbələr gəlir. Qədimlərdən bu yana ulularımız sərt qışda həmişə yaz ümidi ilə yaşayar, Yeni günün - Novruzun gəlişini səbirsizliklə gözləyərdilər. Novruzqabağı dörd ilaxır çərşənbəni bacardıqca sevinclə qeyd edər, ocaq çatar, süfrə açardılar.

Novruz öncəsi dörd ilaxır çərşənbə özlüyündə dünyanın yaranmasını ehtiva edir. Su, Od, Yel və Torpaq təbiətin oyanması, yenidən dirilməsi anlamını verir. Bu çərşənbələr həm də insanın dörd ünsürdən yaradılması haqqında dini-mistik görüşləri də özündə simvollaşdırır.

İlaxır çərşənbələrdən birincisi Su çərşənbəsi bu dəfə fevralın 22-də özünü yetirəcək. Bu tarixi də sıradan saymaq olmaz – 22.02.2022! Ayna effektidir, deyilmi? Hər iki tərəfdən təkrarlanan rəqəmlər. Amma əsas odur ki, ulu Novruzun ilk çərşənbəsinin qədəmləri sayalı olsun, insanlara uğur gətirsin!



Mifik təfəkkürdə su dünyanın özülü, həyatın başlanğıcı, dirilik, sağlamlıq və xoşbəxtlik mənbəyi sayılır. Su çərşənbəsi xalq arasında həm də "əzəl çərşənbə", "gözəl çərşənbə", "gül çərşənbə", "sular Novruzu" adlandırılır. Azərbaycan folklorunda suyun rəmzləşməsi onun əcdad sayılması, and yeri olması ilə də sıx bağlıdır.

Əski zamanlarda Su çərşənbəsində insanlar günəş doğmadan bulaq başına gedər, təzə suda əl-üzünü yuyar, "azarım-bezarım suya" deyib onun üzərindən atlanar, bulaq başında niyyət edərdi. Eyni zamanda suyun ətrafında bir sıra mərasimlər keçirər, yeni günün gəlişini bayram edərdilər. Bəzi bölgələrimizdə hətta susəpən ayini də keçirilərdi. Təəssüf ki, bu gün yurdumuzda çərşənbələr, yüzillər öncə olduğu kimi, bütün ənənələrilə qeyd edilmir. Bunun başlıca səbəbi çağdaşlaşma və şəhərləşmə ilə bağlıdır...

Xalq arasında su ilə bağlı xeyli məsəllər var. İnanclara görə, süfrəyə su dağılması aydınlıqdır, su içən adamı qəfil vurmazlar, su içən adamı ilan çalmaz, lal axan sudan keçməzlər, su olan yerdə dirilik olar, su ehsandır. Bütün bunlar suyun müqəddəsliyini ifadə edir. İnanca görə, Novruzda süzülən plovun suyunu ağacların dibinə tökərlər, neçə il bar verməyən ağac bar verər...

Artıq ikinci ildir, yağıdan qurtulmuş yurd yerlərimizin ayna gözlü bulaqları uzun illərdən sonra doğma sakinləri üçün daha şövqlə axır. Qalib Azərbaycan əsgəri o gözəl bulaqların suyundan ürəklə içir, çaylarından min bir həvəslə adlayıb keçir...

Su çərşənbəniz mübarək!

**F.Yunisli**

# Muğam ustadının ömür və sənət yoluna işıq salan nəşr

Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından növbəti nəşri – "Xan Şuşinski. Biblioqrafiya" çapdan çıxıb. Biblioqrafiya məşhur xanəndə, Xalq artisti Xan Şuşinskinin (İsfəndiyar Aslan oğlu Cavanşirov; 1901-1979) anadan olmasının 120 illiyinə həsr edilib.

Bu nəşr görkəmli muğam ustadı haqqında tərtib edilmiş ilk biblioqrafik vəsaitdir və 1931-2021-ci illəri əhatə edir.

Prezident Heydər Əliyevin "Xan Şuşinskinin 100 illik yubileyinin keçirilməsi haqqında" 20 iyul 2001-ci il tarixli sərəncamı ilə açılan biblioqrafiyada informasiyalar Azərbaycan və rus dillərində verilib. Göstəricidə xanəndənin həyat və yaradıcılığının əsas tarixləri, Azərbaycan musiqisi və sənətkarları haqqında vaxtilə söylədiyi fikirlər, görkəmli şəxsiyyətlərin Xan Şuşinski haqqında söylədiyi fikirlər, xanəndəyə həsr edilmiş şeirlər, kitablar və məqalələr haqqında məlumatlar toplanıb.

Xanəndəyə həsr olunmuş şeirlər bölməsində Xalq şairləri Səməd Vurğun, Məmməd Rahim, Nəriman Həsənzadə, həmçinin şairlər Əli Tudə, Əliağa Vahid və digərlərinin bədii nümunələri verilib.

Milli Kitabxanada qorunub saxlanılan Xan Şuşinskinin ifa etdiyi əsərlərin səs yazılarının göstəriciləri təqdim olunur. Bu bölmədə illər göstərilməsə də, ilk əsərin "Mahur" muğamı olduğunu görə bilirik. Dövlət Səs Yazıları Arxivindəki ilk yazı isə 1953-cü ilə aid olan "Ay gözəl" xalq mahnısıdır. Xanəndənin 70 illiyinə həsr edilmiş radioveriliş 30 dekabr 1971-ci ildə efirə gedib. Gecədə tanınmış muğam ustalarımız iştirak edib. Sərvər İbrahimov, Yaqub Məmmədov, Sara Qədimova, Əbülfət Əliyev və digər görkəmli muğam ustadları.

Nəşrdə Xan Şuşinskinin ilk məqaləsinin 1959-cu ildə "Ədəbiyyat qəzeti"ndə dərc edildiyi bəlli olur. Məqalə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı ongünlüyündə təltif olunmuş mədəniyyət xadimləri haqqındadır. Xanəndə haqqında ilk məqalə isə 1931-ci ildə "Xan Şuşinskinin konsertləri" başlığı ilə "Kommunist" qəzetində dərc olunub.

Sonrakı bölmələrdə biz xanəndə haqqında çoxsaylı məqalə və kitabların siyahısını görə bilirik. Xan Şuşinski dünya milli kitabxanalarında bölməsi də xanəndənin irsinin təbliğinin əhatəliliyini əks etdirir. Biblioqrafiyada görkəmli sənətkara həsr olunmuş televiziya verilişləri, eləcə də özünün çəkildiyi filmlərdə ("O olmasın, bu olsun" – 1956 və s.) barədə də məlumat almaq olar. Bir sözlə, biblioqrafiya sənətşünaslar, musiqi tədqiqatçıları və geniş oxucu kütləsi üçün dəyərli vəsaitdir.




Biblioqrafiyanın elmi redaktoru professor Kərim Tahirov, ön söz müəllifi Xalq artisti, bəstəkar Sərdar Fərəcov, tərtibçisi Həliməxatun Manafova, redaktoru Elnur Nəciyevdir.

**Lalə**

# Yaşar Nurinin şəxsi əşyaları muzeyə təhvil verilib



AMEA Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları Xalq artisti Yaşar Nurinin vaxtilə yaşadığı evdə olublar.

Bu barədə muzeydən məlumat verilib. Bildirilib ki, Yaşar Nurinin xanımı Rəhimə Nuriyeva ilə söhbətdən sonra sənətkarın şəxsi əşyaları muzey əməkdaşlarına təqdim olunub.

Təqdim edilən materiallar arasında görkəmli aktyorun təltif olunduğu "Humay" mükafatı, "Simurq" milli mükafatının diplomu, Yaşar Nurinin uzun illər çalışdığı Akademik Milli Dram Teatrının vəsiqəsi, Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkətinin vəsiqəsi, yubiley dəvətnamələri, müxtəlif film və tamaşalarda rol aldığı səhnələrdən çəkilmiş şəkillər yer alır.

Sənətkarın şəxsi əşyaları muzeyin Sənədli mənbələr elmi fond şöbəsinin müdiri Esmira Rəhimova və şöbənin əməkdaşı Nərmin Bağırova vasitəsilə muzeyə verilib.

# Elmi nəşrlərin reytinq göstəricilərinin yaxşılaşdırılması

## Yol xəritəsinin ilkin layihəsi müzakirə olunub

Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının "Texnologiya və innovasiyalar" işçi qrupunun "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H indeksi) yaxşılaşdırılması üzrə" altqrupunun iclası keçirilib.

Onlayn formatda keçirilən iclasa Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, İqtisadiyyat Nazirliyinin, Təhsil Nazirliyinin, Əqli Mülkiyyət Agentliyinin, Milli Elmlər Akademiyasının, ADA Universitetinin, Dövlət İqtisad Universitetinin, Azərbaycan Turizm və Menecment Universitetinin nümayəndələri və ekspertlər qatılıblar.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, görüş zamanı elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H indeksi) yaxşılaşdırılması məqsədilə 2022-ci il üzrə Yol xəritəsinin ilkin layihəsi müzakirə olunub. Ölkəmizdə H indeksi və digər əlaqəli göstəricilər üzrə mövcud vəziyyət, nəşr sayına görə yuxarı və aşağı göstəriciyə malik elm sahələri, tədqiqatçı profillərinin sayına görə elm və təhsil müəssisələrinin sıralaması, digər məsələlərlə bağlı müzakirələr aparılıb. Azərbaycanın H indeksi göstəricisinin yaxşılaşdırılmasına dair təkliflər dinlənilib, iştirakçılar tərəfindən təqdimatlar edilib.

Yekunda elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H indeksi) yaxşılaşdırılması üzrə tədbirlərin qısa, orta və uzun müddətli olmaqla qruplaşdırılması və altqrupda təmsil olunmayan aidiyyəti qurumların siyahısının müəyyən olunması, eləcə də həmin qurumlardan nümayəndələrin təyin edilməsinə dair qərar qəbul edilib.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2016-cı ildə yaradılıb. Biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə yaradılmış komissiyanın sədri Baş nazirin birinci müavini Yaqub Eyyubovdur.

# Nizaminin "Leyli və Məcnun"u Koreya dilində

Azərbaycanın Koreya Respublikasındakı Səfirliyinin təşəbbüsü və dəstəyi, Azərbaycan Xarici İşlər Nazirliyinin maliyyəsi ilə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması Koreya dilinə tərcümə olunaraq çap edilib. Bu, klassik Azərbaycan şairinin əsərinin ilk dəfə Koreya dilində kitab şəklində nəşridir.




Səfirlikdən verilən məlumata görə, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan edilməsi və dahi şairin 880 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar, ötən ildən etibarən "Leyli və Məcnun" poemasının Koreya dilinə tərcüməsinə başlanılıb. Əsəri Koreya Respublikasının Hoseo Universitetinin professoru Kim Seonq-Ryonq və həmin universitetin magistri Ramin Abasov tərcümə ediblər. Poemanın tərcüməsi Orta əsrlərin dil xüsusiyyətləri maksimum dərəcədə nəzərə alınmaqla, Koreya dilinə uyğunlaşdırılaraq həyata keçirilib. Nəşrə oxucunun daha ətraflı və asan anlayışı üçün Orta əsrlər terminologiyasına dair çoxsaylı izahedici qeydlər, eləcə də "Leyli və Məcnun" əsərindəki bir sıra səhnələrin miniatürləri əlavə edilib.

Bundan əlavə, kitabda Nizami Gəncəvinin həyat və yaradıcılığından ətraflı bəhs edilir, dahi şairin yaşayıb-yaratdığı XII-XIII əsrlərdə Azərbaycanın yerləşdiyi regiondakı ictimai-siyasi mühit, həmin dövrdə mövcud olmuş dövlətlər və dövlət xadimləri barədə məlumat verilir.

# Xatirə təqvimi

**19–22 fevral**

## Azərbaycan

**19 fevral 1897** – Xalq artisti Antonina Mixaylovna Filippova (1897-1976) anadan olub. Dövlət Rus Dram Teatrında (1935-1950) aktrisa kimi fəaliyyət göstərib.

**19 fevral 1921** – Əməkdar artist, tarzən Məmmədağa Məmmədhəsən oğlu Muradov (1921-1969) Bakıda anadan olub. Azərbaycan Dövlət Filarmoniyası Xalq çalğı alətləri orkestrinin solisti, konsertmeysteri olub, musiqi məktəblərində dərs deyib.

**19 fevral 1948** – Əməkdar rəssam, pedaqoq Fikrət Məmməd oğlu Həşimov (1948 – 8.2.2022) Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda doğulub. Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin direktoru olub.

**19 fevral 1949** – Ədəbiyyatşünas, mədəniyyət xadimi, filologiya elmləri doktoru Adilxan Hüseynəli oğlu Bayramov (1949 – 14.4.2021) Gürcüstanın Marneuli rayonunun Sadaxlı kəndində doğulub. S.Vurğunun yaradıcılığı, Tiflis Azərbaycan teatrının, Azərbaycanda muzey işinin tarixi ilə bağlı tədqiqatların müəllifidir.

**20 fevral 1900** – Xalq artisti, aktyor, rejissor Səməd Məmməd oğlu Mövləvi (1900 – 3.2.1962) anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**20 fevral 1915** – Əməkdar artist Rüxsarə Əli qızı Ağayeva (1915 – 26.11.1994) Bakıda anadan olub. Naxçıvan, Qazax teatrlarında, Gənc Tamaşaçılar Teatrında çalışıb, filmlərdə çəkilib.

**20 fevral 1925** – Əməkdar artist, vokalçı Kamal Həmid oğlu Kərimov (1925 – 13.1.1992) Bakıda doğulub. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb.

**20 fevral 1928** – Tanınmış şair, dramaturq Əliağa Kürçaylı (Əliağa Həsənağa oğlu Vəliyev; 1928 – 11.2.1980) Salyan rayonunun Kürqaraqaşlı kəndində doğulub. Kitabları: "Yollarda axtar məni", "Həyatın dolayları", "Dünya ovcumdadır" və s. Rus poeziyasından tərcümələr edib.

**20 fevral 1935** – Şərqşünas, professor Şulan İsmayıl oğlu Şirəliyev (1935-2013) anadan olub.

**20 fevral 1938** – Dilçi alim, türkoloq Cəfər İsmayıl oğlu Cəfərov (1938-1996) anadan olub.

**20 fevral 1957** – Ustad tarzən, Əməkdar artist Məmmədxan Məmmədrza oğlu Bakıxanov (1890-1957) vəfat edib. Uzun müddət Cabbar Qaryağdıoğlu və Seyid Şuşinski kimi məşhur xanəndələri müşayiət edib.

**20 fevral 1960** – Əməkdar artist Adil Ağakərim oğlu Zeynalov (1960 – 12.3.2020) anadan olub. Lənkəran Dövlət Dram Teatrında aktyor və rejissor işləyib.

**20 fevral 1980** – Bakıda Azərbaycanın böyük mütəfəkkir şairi İmadəddin Nəsiminin abidəsinin (heykəltəraşlar – Tokay Məmmədov və İbrahim Zeynalov) açılışı keçirilib. Mərasimdə respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev iştirak edib.

**20 fevral 1984** – Böyük bəstəkar, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Fikrət Məşədi Cəmil oğlu Əmirov (22.11.1922 – 1984) vəfat edib. Simfonik muğamlar, "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu", "Sevil" operası və s. əsərlərin müəllifidir. Bəstəkarın "Min bir gecə" baleti dünya musiqi xəzinəsinə daxildir.

**20 fevral 2014** – Xalq artisti, tanınmış teatr və kino aktrisası Firəngiz Abbas Mirzə qızı Şərifova (6.2.1924 – 2014) vəfat edib.

**20 fevral 2021** – Əməkdar rəssam Qüdrət Hacıbəy oğlu Məmmədov (12.12.1936 – 2021) vəfat edib. Şəki Dövlət Dram Teatrının baş rəssamı işləyib.

**21 fevral 1906** – Əməkdar incəsənət xadimi, kinorejissor Həbib Ələkbər oğlu İsmayılov (1906 – 31.12.1966) Naxçıvanda doğulub. Azərbaycan kinosunda xüsusi yeri olan "Ögey ana" (1958), "Böyük dayaq" (1962) filmlərinə quruluş verib.

**21 fevral 1921** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Böyükağa Məşədi oğlu Mirzəzadə (1921 – 3.11.2007) Bakının Fatmayı kəndində doğulub. Tematik tablolar, portret əsərlərin müəllifidir, teatr tamaşalarına bədii tərtibat verib.

**21 fevral 1921** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Oqtay Sadıqzadə (1921 – 20.12.2014) Xızıda, yazıçı Seyid Hüseyn və şairə Ümgülsümün ailəsində anadan olub. "Nizami Gəncəvi və dünya mədəniyyəti" silsiləsi, "1937-ci il repressiyasının qurbanları", "Hüseyn Cavidin aləmi" triptixi və s. əsərlərin müəllifidir.

**22 fevral 1869** – Görkəmli yazıçı, dramaturq, naşir Cəlil Məmmədqulu oğlu Məmmədquluzadə (1869 – 4.1.1932) Naxçıvanda doğulub. Realist hekayələri, povest ("Danabaş kəndinin əhvalatları") və dram əsərləri ("Ölülər", "Dəli yığıncağı", "Anamın kitabı") ilə milli ədəbiyyata misilsiz töhfələr verib. "Molla Nəsrəddin" jurnalı (1906) ilə Azərbaycanda satirik jurnalistikanın əsasını qoyub.

**22 fevral 1898** – Əməkdar elm xadimi, ədəbiyyatşünas alim, akademik Feyzulla Səməd oğlu Qasımzadə (1898 - 29.3.1976) anadan olub.

**22 fevral 1914** – Xalq rəssamı, heykəltəraş Cəlal Məhərrəm oğlu Qaryağdı (1914-2001) Şuşa şəhərində anadan olub. Azərbaycanın bir sıra mədəniyyət və ictimai xadimlərinin heykəl və büstlərinin (N.Nərimanov, M.Ə.Sabir və s.) müəllifidir.

**22 fevral 1917** – Yazıçı-dramaturq Yusif Əhmədulla oğlu Əzimzadə (1917-1984) anadan olub. "Çiçəklər səltənəti", "Anacan", "Nəsrəddin" və s. pyeslərin müəllifidir, rus ədəbiyyatından tərcümələr edib.

**22 fevral 1924** – Xalq artisti, bəstəkar Süleyman Əyyub oğlu Ələsgərov (1924 – 21.1.2000) Şuşada doğulub. "Ulduz", "Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu", "Həmişəxanım" operettalarının, "Bahadır və Sona", "Solğun çiçəklər" operalarının, mahnıların müəllifidir.

**22 fevral 1950** – Əməkdar rəssam Asif Əli oğlu Məmmədov (1950 – 4.11.2002) Gəncədə doğulub. Gəncə Dövlət Dram Teatrının baş rəssamı olub.

**22 fevral 2021** – Xalq artisti, tanınmış müğənni Yalçın İmran oğlu Rzazadə (15.12.1939 – 2021) vəfat edib.

## Dünya

**19 fevral 1473** – Polyak astronomu, riyaziyyatçı, mütəfəkkir Nikolay Kopernik (1473 – 24.5.1543) anadan olub. Dünyanın heliosentrik sistemi (planetlərin Günəş ətrafında fırlanması) nəzəriyyəsinin banisi sayılır.

**19 fevral 1743** – İtalyan bəstəkarı Luici Bokkerini (Luigi Boccherini; 1743-1805) anadan olub.

**19 fevral 1821** – Alman dilçi alimi, linqvistikanın tanınmış simalarından biri Avqust Şleyxer (August Schleicher; 1821-1868) anadan olub.

**20 fevral 1925** – Amerika rejissoru, ssenarist Robert Altman (1925-2006) anadan olub. Avropanın üç əsas festivalının (Kann, Venesiya, Berlin) qalibi olan yeganə amerikalı rejissordur.

**20 fevral 1967** – Amerika rok-musiqiçisi, "Nirvana" qrupunun rəhbəri Kurt Kobeyn (Kurt Donald Cobain; 1967-1994) anadan olub.

**21 fevral** Beynəlxalq Ana Dili Günüdür (İnternational Mother Language Day). 1999-cu ildə UNESCO tərəfindən milli dillərin və mədəni müxtəlifliyin qorunması məqsədilə təsis edilib.

**21 fevral 1906** – Rus boyakarı, qrafik, kitab illüstratoru, SSRİ Xalq rəssamı Yevgeni Adolfoviç Kibrik (1906-1978) anadan olub.

**21 fevral 1925** – Amerika rejissoru və ssenaristi Sem Pekinpa (David Samuel Peckinpah; 1925-1984) anadan olub. Kinoda vestern janrının tanınmış simalarındandır.

**22 fevral 1788** – Alman filosofu, irrasionalizmin banilərindən biri Artur Şopenhauer (Arthur Schopenhauer; 1788-1860) anadan olub.

**22 fevral 1921** – İtalyan aktrisası Cülyetta Mazina (Giulietta Masina; 1921-1994) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

№14 (1887)
18 fevral 2022
www.medeniyyet.az

# “Eurovision 2022”də Azərbaycanın təmsilçisi

## Turinə Nadir Rüstəmli gedəcək



İtaliyanın Turin şəhərində keçiriləcək “Eurovision 2022” mahnı müsabiqəsində Azərbaycanı təmsil edəcək iştirakçının adı açıqlanıb.

Müsabiqənin milli yayımçısı olan İctimai Televiziya və Radio Yayımları Şirkətindən verilən məlumata görə, bu il ölkəmizi İtaliyanın Turin şəhərində keçiriləcək yarışmada Nadir Rüstəmli təmsil edəcək.

İctimai TV-də yayımlanan beynəlxalq lisenziyalı “Səs Azərbaycan”ın böyük finalında tamaşaçıların dəstəyini almış və qalib seçilmiş Nadir Rüstəmli 1999-cu ildə Salyan şəhərində doğulub və uşaq yaşlarından musiqi ilə məşğul olub. O, 2019-cu ildə “Youthvision” beynəlxalq tələbə mahnı müsabiqəsində ölkəmizi təmsil edib və 21 ölkə arasında Azərbaycana 2-ci yeri qazandırıb.

Məlumatda o da diqqətə çatdırılır ki, “Eurovision 2022”də ifa olunacaq mahnı seçimi üzrə qəbul mərhələsi də başa çatıb. Azərbaycan nümayəndə heyətinin rəhbəri, bəstəkar İsa Məlikov bildirib ki, seçim üçün 300-dən çox mahnı təqdim edilib. Seçim prosesi mart ayının 2-ci həftəsində yekunlaşacaq və mahnı elan olunacaq.

Qeyd edək ki, şüarı “The sound of beauty” (“Gözəlliyin səsi”) olan “Eurovision 2022”nin yarımfinal mərhələləri may ayının 10 və 12-də, final mərhələsi isə mayın 14-də Turin şəhərində “PalaOlimpico”da baş tutacaq.

# Heydər Əliyev Mərkəzində italiyalı dirijorun iştirakı ilə konsert keçiriləcək

Martın 4-də Bakıdakı Heydər Əliyev Mərkəzində tanınmış italiyalı dirijor Alvize Kazellatinin iştirakı ilə konsert proqramı təqdim olunacaq.




Auditorium zalında keçiriləcək gecədə italiyalı dirijorun idarəsi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və solist Emil Bağırov (klarnet) Lüdviq van Bethoven, Volfqanq Amadey Motsart, Pyotr Çaykovski kimi dahi musiqiçilərin əsərlərini ifa edəcək.

Alvize Kazellati dirijor kimi ilk dəfə 2011-ci ildə Venesiyada “Teatro La Fenice” səhnəsində çıxış edib. Musiqiçi son bir neçə ildə müxtəlif festivallarda iştirak üçün dəvət alıb, İtaliyanın bir sıra məşhur opera teatrları ilə əməkdaşlıq edir. 2017-ci ildə təsis edilən “Opera Italiana is in the Air” layihəsinin yaradıcısı və musiqi rəhbəridir. Layihənin əsas məqsədi gənc dinləyiciləri İtaliyanın opera irsinə cəlb etmək, italyan operasının hamı üçün əlçatanlığını təmin etməkdir.

Konsertdə solist kimi çıxış edəcək klarnet ifaçısı Emil Bağırov 2014-cü ildə adı gənc istedadların “Qızıl kitabı”na yazılmaqla Prezident təqaüdünə, 2017-ci ildə Prezident mükafatına layiq görülüb. 2012-ci ildə Təl-Əviv şəhərində keçirilən beynəlxalq musiqi yarışmasında “Ən yaxşı ifaçı” seçilib. 2013-cü ildən Azərbaycan Dövlət Simfonik Orkestrinin solistidir.

# Türk dünyasının aydınlarından Əhməd Baytursunulı Ankarada anılıb



Türk dünyasının aydınlarından biri, çağdaş qazax dilçiliyinin banisi, filoloq, pedaqoq Əhməd Baytursunov (Baytursunulı; 1872-1937) anadan olmasının 150 illiyi çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Ankaradakı qərargahında anılıb.

TÜRKSOY, Qazaxıstanın Türkiyədəki Səfirliyi və Türk Dil Qurumunun birgə təşkilatçılığı ilə “Qazax dilinin dönüş nöqtəsi: Əhməd Baytursunulının anadan olmasının 150 illiyi münasibətilə bilik bayramı” adlı beynəlxalq konfrans keçirilib.

Açılış nitqi ilə çıxış edən TÜRKSOY-un Baş katibi Düsen Kaseinov XX əsrin əvvəllərində Qazaxıstanda milli azadlıq hərəkatının liderlərindən biri olmuş, qazax dilçisi, ədəbiyyatşünas, tərcüməçi, Alaş Orda hökumətinin üzvü Əhməd Baytursunulını bu konfransla yad etməkdən məmnunluğunu bildirib: “Türk dünyasının ziyalısı olan Baytursunulı öz yaradıcılığı ilə təkcə qazax dilinə deyil, digər türk dillərinə də mühüm töhfələr vermişdir...”.

Baş katib qeyd edib ki, Əhməd Baytursunulı 1910-cu ildə ərəb əlifbasını qazax dilinə uyğunlaşdırıb, 1912-cu ildə qazax uşaqları üçün ilk “Əlifba” kitabını yazıb.

Qazaxların milli maarifçilik və oyanış hərəkatı olan Alaş Hərəkatının XX əsrin əvvəllərində Türk dünyasının hər tərəfində baş verən azadlıq və istiqlal mücadiləsinin bir parçası olduğunu deyən Qazaxıstanın Türkiyədəki səfiri Abzal Saparbekuli vurğulayıb ki, Əhməd Baytursunulı bu hərəkatın mənəvi liderlərindən biri olub. Səfir həmçinin bir maarifpərvər olan və “ustaz” (müəllim) adı ilə tanınan Baytursunulının qazax dilinin dərinliklərinə vararaq ərəb əlifbasının qrammatikasına uyğun tərtib etdiyi qaydalardan ibarət əsərlərinin böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Türk Dil Qurumunun başqanı Gürer Gülsevin isə Baytursunulının tədqiqatlarının türk dilinin inkişafı və tədrisinə töhfələr verdiyini, onun sovet dövründə türk xalqlarının dilçiləri üçün mühüm mənbə olduğunu bildirib.

Sonra yazıçı Serikbay Ospanovun TÜRKSOY-un dəstəyi ilə qazax dilində yeni nəşr olunmuş “Ult ustazı” (millət müəllimi) kitabının təqdimat lenti kəsilib. Türk dünyasından olan elm adamlarının Əhməd Baytursunulının həyatı, yaradıcılığı, qazax dili və ədəbiyyatına verdiyi töhfələr mövzusunda elmi məruzələri dinlənilib.

Konfransda Azərbaycanı təmsil edən AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin müdiri, dosent Elçin İbrahimov “Qazax milli düşüncəsinin formalaşmasında Əhməd Baytursunoğlunun rolu” mövzusunda məruzə ilə çıxış edib. O, görkəmli elm fədaisinin qazax milli kimliyinin formalaşmasında, qazax dilinin inkişafında, çar və sovet Rusiyası dövründə Qazaxıstanda maarifçilik hərəkatının təşəkkülündə və genişlənməsində misilsiz rol oynadığını vurğulayıb.

Tədbir qazaxıstanlı musiqiçi Asem Erejekızının qazax milli aləti – dombrada ifa etdiyi konsert proqramı ilə başa çatıb.

Konfransa qatılan alimlərə TÜRKSOY-un xatirə hədiyyələri, mükafatlar təqdim edilib. Elçin İbrahimov TÜRKSOY tərəfindən türkologiya və Türk dünyası sahəsində apardığı araşdırmalara görə sertifikat və “Dyula Nemet 130” medalı ilə təltif olunub.

**Mehparə Sultanova**
**Ankara**

# “Azərbaycanı boyalarla öyrənək!”

## Malayziyalı uşaqlar üçün layihə

Azərbaycanın Malayziyadakı Səfirliyi uşaqlar üçün maraqlı aksiya təşkil edib. Kuala Lumpur şəhərindəki “Taman Melavati 2” ibtidai məktəbinin bir qrup şagirdi səfirlik tərəfindən nəşr edilmiş “Azərbaycanı boyalarla öyrənək!” adlı boyama kitabında öz bacarıqlarını sınayıblar.

Səfirliyin qonağı olan məktəblilər kitabda verilmiş Azərbaycanın milli mədəni irsini əks etdirən nümunələri öz təxəyyüllərinin gücü ilə təsəvvür edərək rəngləyiblər. Xüsusi qabiliyyətləri ilə seçilən şagirdlər həvəsləndirici mükafatlara layiq görülüblər.

Səfirliyin üçüncü katibi Səbinə Yolçuyeva məktəbliləri səfirliyin inzibati binası və burada nümayiş olunan Azərbaycan mədəniyyətinə məxsus eksponatlarla tanış edib.

Qeyd edək ki, ötən ilin dekabrında Malayziyadakı səfirliyimizin təşəbbüsü ilə uşaqlar üçün






“Coloring and Exploring Azerbaijan” (“Azərbaycanı boyalarla öyrənək”) adlı boyama kitabı nəşr olunub. Vəsaitdə Azərbaycanın tarixi-mədəni irsinə aid təsviri nümunələr yer alıb.

Uşaqlar kitab vasitəsilə Azərbaycanın Şuşa qalası və Qız qalası kimi tarixi abidələri ilə tanış olmaqla yanaşı, müasir memarlıq nümunələri, musiqi alətləri (tar, kamança, qaval), xarıbülbül çiçəyi, Qarabağ atı, Novruz bayramı, nağıl qəhrəmanlarından Göyçək Fatma və Cırtdan, eləcə də milli-tarixi geyimlərimiz kimi tematik təsvirləri rəngləyərək Odlar Yurduna səyahət edirlər.

# “Disko rəqqası”nın bəstəkarı vəfat edib



Hindistan kino industriyasında – Bollivudda “diskoteka dövrü”nün klassiki hesab edilən tanınmış bəstəkar və müğənni Bappi Lahiri (Alokesh Lahiri) 69 yaşında vəfat edib.

Hindistan mediasının məlumatına görə, musiqiçi müalicə aldığı klinikada gecə yarısı yuxu apnesi (tənəffüsün dayanması) səbəbindən ölüb.

Bappi Lahiri hind kinosunun musiqisində diskoteka üslubunun banisi hesab olunur. O, 1970-1980-ci illərdə məşhur filmlərə musiqi bəstələyib. O cümlədən sovet məkanında milyonlarla tamaşaçı toplayan “Disko rəqqası” (1982), “Rəqs et, rəqs et” (“Disko rəqqası 2”, 1987), “Sevgi, sevgi, sevgi” (1989) kimi filmlərin musiqisinin müəllifidir. Bu filmlərdəki mahnıların bəziləri o özü ifa edib.

Bəstəkar tez-tez “Ottawan”, “The Buggles” və “Modern Talking” kimi Qərb diskoteka qruplarının bəstələri ilə oxşarlıqda da ittiham olunub. Lakin bu, onun musiqisinin Hindistanda, bir çox Asiya ölkələrində, eləcə də keçmiş SSRİ-də və Şərqi Avropada böyük populyarlığına mane ola bilməyib.

# Yaşı 95-i keçibsə, müəlliflik hüququ yoxdur

## “Vinni Puh” ictimai sərvətə çevrilib

ABŞ-da müəlliflik hüququ haqqında qanunvericiliyə əsasən, əsər yazıldığı vaxtdan 95 il ötdükdə avtomatik olaraq ictimai sərvətə çevrilir. Bununla bağlı hər ilin yanvarında bir sıra əsərlərin müəllif hüquqlarının dayandırıldığı elan edilir. 1926-cı ildə yaradılmış əsərlər 2022-ci ildə ictimaiyyətin ümumi mülkiyyətinə çevrilir.

Müəllif hüququ qanunu kitablara, filmlərə və musiqi əsərlərinə şamil edilir. Bu il uşaq ədəbiyyatının məşhur ədəbi nümunələrindən biri – Alan Milnin “Vinni Puh” hekayəsi də ictimai sərvətə çevrilib. Siyahıda, həmçinin Ernest Heminqueyin “Günəş də doğar” romanı, Aqata Kristinin “Rocer Ekroydun qətli”, Feliks Zaltenin “Bembi” və Vilyam Folknerin “Əsgər mükafatı” hekayələri yer alıb. İctimai sərvət hesab olunan əsərlərin tam siyahısı ilə Duke Universitetinin rəsmi saytında tanış olmaq olar.

Əsər müəlliflik hüququndan çıxdıqdan sonra hər kəs onu icazəsiz və ya əlavə pul xərcləmədən qanuni olaraq yenidən bölüşə və istifadə edə bilər. Məsələn, kitab əsasında film çəkmək olar.

Müəllif hüququ qanunu yalnız orijinala, həmçinin orijinal əsasında yaradılmış əsərlərə aiddir. Məsələn, Disney animatorları tərəfindən çəkilmiş “Vinni Puh” və “Donuz balası”nın şəkilləri şirkətin intellektual mülkiyyəti hesab olunur və icazəsiz istifadə edilə bilməz.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 409 il əvvəl...

**21 fevral 1613-cü ildə** Rusiya boyarları çox götür-qoy etdikdən sonra Mixail Romanovu çar elan ediblər. Rüriklər sülaləsinin süqutundan (1605) sonra çar Rusiyasında başlanan dağılma prosesinin qarşısı alınıb. Romanovların üç əsr sürən hakimiyyəti 1917-ci ilədək davam etdi.

### 159 il əvvəl...

**19 fevral 1861-ci ildə** İmperator II Aleksandr Rusiyada təhkimçilik hüququnun ləğv olunması barədə manifest imzalayıb. Çar Rusiyası kəndliləri ilk dəfə sərbəstlik əldə ediblər.

### 144 il əvvəl...

**19 fevral 1878-ci ildə** Rusiya ilə Türkiyə (Osmanlı) arasında növbəti müharibə başa çatıb və tərəflər arasında ilkin sülh sənədi – San-Stefano müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Osmanlı dövləti Balkanlar üzərində faktiki nəzarəti itirib.

### 68 il əvvəl...



**19 fevral 1954-cü ildə** SSRİ rəhbəri Nikita Xruşşovun təşəbbüsü ilə Krım vilayəti Rusiyanın tərkibindən çıxarılaraq Ukrayna SSR-ə verilib. 27 min kvadrat kilometr ərazisi olan Krım vilayəti 1945-ci ildə təşkil olunmuşdu. Xruşşov Ukraynanın Rusiyaya birləşdirilməsinin (1654) 300 illiyi münasibətilə bu jesti etmişdi.

### 34 il əvvəl...

**20 fevral 1988-ci ildə** Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Xalq Deputatları Sovetinin erməni deputatları qeyri-legitim sessiya çağıraraq “Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi haqqında” qərar qəbul ediblər. DQMV-nin XDS-nin mandatı 1988-ci ilin yanvarında bitmişdi və ermənilərin qəbul etdiyi qərar qeyri-legitim idi. Bu hadisə Qarabağ münaqişəsinin formal olaraq başlanğıcı sayılır.

**22 fevral 1988-ci ildə** Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları zəminində başlanan Dağlıq Qarabağ münaqişəsində ilk toqquşma baş verib. Erməni millətçiləri Əsgəran qəsəbəsi yaxınlığında Ağdam rayonundan olan iki azərbaycanlı gənci qətlə yetiriblər. Həmin gün Bakıda ermənilərin Qarabağa iddialarına etiraz olaraq mitinq keçirilib.

### 30 il əvvəl...



**20 fevral 1992-ci ildə** Azərbaycanla Almaniya arasında diplomatik münasibətlər qurulub. Almaniya ölkəmizin müstəqilliyini 1992-ci il yanvarın 12-də tanıyıb.

**21 fevral 1992-ci ildə** Azərbaycan Fransa və Polşa ilə diplomatik əlaqələr qurub. Polşa Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 27-də, Fransa isə 1992-ci il yanvarın 3-də tanımışdı. Fransa Türkiyədən sonra Bakıda səfirlik açan ikinci ölkə olub.

### 25 il əvvəl...

**21 fevral 1997-ci ildə** görkəmli tarixçi və şərqşünas, akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov Bakıda, yaşadığı binanın yanında qətlə yetirilib. Ziya Bünyadov (1923-1997) uzun illər Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutuna rəhbərlik edib, akademiyanın vitse-prezidenti (1990-1997), Milli Məclisin deputatı (1995-1997) olub.

**Hazırladı: V.Orxan**

# 5,5 milyard mənfəət – 5,7 milyard ianə

“Tesla” kompaniyasının baş direktoru İlon Mask ötən il xeyriyyə məqsədilə 5,7 milyard dollar həcmində qiymətləndirilən səhm ianələri edib.

“The Wall Street Journal” xəbər verir ki, bu barədə məlumat İlon Maskın ABŞ-ın Qiymətli Kağızlar və Birjalar Komissiyasına təqdim etdiyi hesabatda yer alıb. Hesabatda sahibkarın ianə etdiyi səhmləri kimlərə verdiyi barədə informasiya yoxdur. İlon Maskın özü də bu məlumatı şərh etməkdən boyun qaçırıb.

İanələr 2021-ci ilin son iki ayı ərzində “Tesla” kompaniyasının ümumi dəyəri 16 milyard dollardan çox qiymətləndirilən səhmlərinin satış seriyası zamanı edilib.

“Chronicle of Philanthropy” jurnalının məlumatına görə, ötən ilin yekunlarına əsasən, yalnız Bill və Melinda Qeyts cütlüyü İlon Maskdan daha çox – 15 milyard dollar ianə verib.

Qeyd edək ki, “Tesla” kompaniyasının 2021-ci ildə əldə etdiyi xalis mənfəət rekord həddə – 5,5 milyard dollara çatıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 504
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641